# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

29 avqust 2026-cı il, şənbə

№ 155 (7222)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Müstəqillik yolunun əsasını qoyan tarixi sənəd

Bax səh. 2



Бакы шәһәри, 30 август 1991-чи ил.

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ДӨВЛӘТ МҮСТӘГИЛЛИЈИНИ БӘРПА ЕТМӘК ҺАГГЫНДА

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫ АЛИ СОВЕТИНИН

БӘЈАННАМӘСИ

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ДӨВЛӘТ МҮСТӘГИЛЛИЈИНИН БӘРПА ОЛУНДУҒУНУ Е'ЛАН ЕДИР.

Бәјаннамә 1991-чи ил августун 30-да Азәрбајчан Республикасы Али Советинин нөвбәдәнкәнар сессијасында гәбул едилмишдир.

30 AVQUST 1991



**İlham Əliyev:**

**1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu - həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi**

(26 avqust 2025. "Əl-Ərəbiyyə" telekanalına müsahibə)

**Heydər Əliyev:**

**Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, xalqın qarşısında ikiüzlü olarıq!**

(30 avqust 1991-ci il. Azərbaycan Respublikası Ali Sovetinin sessiyası)



# Azərbaycan-Özbəkistan: iqtisadi əməkdaşlığın yeni formatı

Bax səh. 3



# 104 illik tarix!

## Qardaş ölkənin yenilməzlik salnaməsi...

Bax səh. 5

### Polşanın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

Bax səh. 3

### ABB xarici maliyyə bazarlarında mövqeyini gücləndirir

Bax səh. 3

### E-ticarətlə bağlı yeni vergi tələbi

Bax səh. 4

### Sığorta bazarı böyüyür, xidmət isə....

Bax səh. 4

### Köçəryan həbs edildi - taleyin ironiyası, ədalətin təntənəsi

Bax səh. 5

## Fransa maliyyə dalanında - dağıdıcı nəticələr qaçılmaz ola bilər



Bax səh. 6



## Nüvə kabusu...

Bax səh. 7



**Heydər Əliyev:**

**Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, xalqın qarşısında ikiüzlü olarıq!**

**(30 avqust 1991-ci il. Azərbaycan Respublikası Ali Sovetinin sessiyası)**

**İlham Əliyev:**

**1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu - həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi**

**(26 avqust 2025. “Əl-Ərəbiyyə” telekanalına müsahibə)**



# Müstəqillik yolunun əsasını qoyan tarixi sənəd

## Ali Sovet 1991-cı il avqustun 30-da “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Bəyannamə qəbul edib

Azərbaycan xalqı zəngin dövlətçilik ənənələrinə malikdir. Məmləkətimizdə zaman-zaman müxtəlif adlar və fərqli idarəçilik modelinə əsaslanan qüdrətli dövlətlər mövcud olub. Həmin dövlətlər sonradan bu və ya digər səbəblərdən süquta uğrasa da, xalqımız azad yaşamaq, özünün müstəqil dövlətini qurmaq arzusundan heç vaxt geri çəkilməyib və daim bu amal uğrunda mücadilə aparıb.

İş elə gətirib ki, XX yüzillikdə Azərbaycanda iki dəfə müstəqil dövlət qurmaq mümkün olub. 1918-ci il mayın 28-də qurulan Azərbaycan Demokratik Respublikasının (AXC) ömrü qısa olub - cəmi 23 ay yaşayıb. Xalqımız XX yüzillikdə ikinci dəfə müstəqilliyinə ötən əsrin doxsanıncı illərinin əvvəlində qovuşub. XX yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyə gedən yol isə Ali Sovetdə 1991-ci il avqustun 30-da “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Bəyannaməsinin qəbul edilməsi ilə başlayıb.

### AXC-nin süqutu - ikinci Rusiya işğalı

Dövlətçilik tariximiz zəngin olsa da, bu tarixdə bir sıra qara səhifələr də yazılıb. Belə ki, əcdadlarımız yadellilərin hücumlarını dəf etmək məcburiyyətində qalıblar, itkilər vermişik, torpaqlarımız qanla suvarılıb, bir sıra hallarda məmləkətimiz işğala məruz qalıb və böyük sərhədlərimiz daralıb.

Tariximizdə belə qara səhifələrdən biri də 1920-ci il aprelin 28-də baş verənlərdir. Keçmiş sovet dönəmində - təxminən 70 il ərzində xalqa bayram kimi sırınan bu tarix, əslində, dövlətçiliyimizə vurulan ağır zərbə, məmləkətimizin işğalının növbəti mərhələsi idi. Bundan əvvəl Azərbaycan ərazisində mövcud olmuş kiçik dövlətlər - xanlıqlar bir-birinin ardınca Rusiya tərəfindən işğala məruz qalmış və torpaqlarımız bölünmüşdü. İmperiya qüvvələri bununla kifayətlənməmişdilər və qeyd olunan tarixdə respublikamıza soxularaq 1918-ci il mayın 28-də qurulan Azərbaycan Xalq Cümhuriyyətini də süquta uğratdılar

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, əslində, 1828-ci ildə baş tutan Rusiya işğalından sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi. Bu faktın özü cümhuriyyətin yaradılmasının nə qədər önəmli hadisə olduğunu bir daha təsdiqləyir. Əgər 1918-ci ildə Xalq Cümhuriyyəti qurulmasaydı, sonrakı mərhələdə SSRİ təşkil olunarkən Azərbaycan, bəlkə də, bu İttifaqın tərkibinə müttəfiq respublikalardan biri kimi yox, muxtar vilayət kimi daxil olardı. Eyni zamanda, tarixdə Azərbaycan Xalq Cümhuriyyəti olmasaydı, SSRİ-nin dağılmasından sonra respublikamıza yalnız Rusiya Federasiyasının subyekti kimi hüquqi status verilə bilərdi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması yalnız dövlətçilik tariximizin bərpası baxımından önəmli deyildi. Yeni respublikanın yaradılması, əslində, xalqımızın milli kimliyinin son dərəcə parlaq təcəssümü idi. Bu respublika cəmi 23 ay mövcudluğu ərzində dövlətin institusional əsaslarının yaradılması, hüquqi bazanın möhkəmləndirilməsi, təhsil, ordu quruculuğu, demokratik təsisatların formalaşdırılması, qadınlara seçki hüququnun verilməsi, beynəlxalq birliyə inteqrasiya və digər məsələlərlə əlaqədar mühüm qərarlar qəbul etdi. Əgər cümhuriyyət yaşasaydı, süqut etməsəydi, daha böyük uğurlara imza atacaqdı. Ancaq Rusiyanın imperiya xisləti qonşuluqda belə bir müstəqil və müasir dövlətin mövcudluğunu inkar edirdi. Buna görə AXC-nin süquta uğradılması və Azərbaycanın bütünlüklə işğal altına alınması məqsədilə ssenarilər hazırlanırdı. Həmin bədnam planlar 1920-ci ilin aprel ayında işə salındı...

AXC-nin Rusiya bolşevik qüvvələri tərəfindən süquta uğradılması faktiki olaraq Azərbaycanın Rusiya tərəfindən işğalının yekunlaşması demək idi. Bunu həm müstəqil Azərbaycanın banisi Heydər Əliyev, həm də Prezident İlham Əliyev işğal faktı kimi dəyərəndiriblər. Heydər Əliyev hələ 30 avqust 1991-ci il tarixində Azərbaycan parlamentindəki çıxışında işğal faktının müstəqilliyin bərpası haqqında bəyannaməyə salınmasını təkid etmişdi. Müdrik siyasətçi olan Heydər Əliyev Ali Sovetin sessiyasındakı çıxışında açıq şəkildə bildirmişdi: “Mən Azərbaycan Kommunist Partiyasına 14 ilə yaxın rəhbərlik etmişəm, 28 aprel inqilabını ömrüm boyu tərənnüm etmişəm və mən qətiyyətlə deyirəm, 28 apreldə Azərbaycan işğal olunub. Azərbaycan Demokratik Respublikası zorakılıqla ləğv olunub. Əgər biz bunu qeyd etməsək, xalqın qarşısında ikiüzlü olarıq!”

Aradan illər ötəndən sonra Prezident İlham Əliyev də 1920-ci il 28 aprel olaylarını eyni baxış bucağından dəyərləndirib. Dövlətimizin başçısı “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində tariximizə ekskurs edərək vurğulayıb: “1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu - həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi”.


Бакы шәһәри, 30 август 1991-чи ил.

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ДӨВЛӘТ МУСТӘГИЛЛИЈИНИ БӘРПА ЕТМӘК ҺАГГЫНДА

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫ АЛИ СОВЕТИНИН

БӘЈАННАМӘСИ

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ДӨВЛӘТ МУСТӘГИЛЛИЈИНИН БӘРПА ОЛУНДУҒУНУ Е'ЛАН ЕДИР.

30 AVQUST 1991

### Danışan sənədlər...

Keçmiş sovet rejimi tarixdə baş verənləri fərqli, saxtakar bir formada təqdim etsə də, zaman hər şeyi ələyərək öz yerinə qoyub. Baş vermiş işğal xalqımızın dövlətçilik tarixinə ağır zərbələr vurub və bunu danışan sənədlər, onilliklər boyunca sirr kimi saxlanılan arxiv materialları əyani şəkildə təsdiqləyir. Həmin sənədlərdən bir qismi Dövlət Sərhəd Xidmətinin (DSX) inzibati binasında yaradılan “Siyasi repressiya qurbanları muzeyi”ndə saxlanılır. 2019-cu il mayın 24-də fəaliyyətə başlayan bu muzeyin 1925-ci ildən keçmiş rejimin əsas repressiya qurumlarının fəaliyyət göstərdiyi binada açılması rəmzi məna daşıyır.

Muzeyin ekspozisiyasının əsasını Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər, Milli Arxiv İdarəsinin Dövlət və Kino-Foto arxivlərində, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanan sənədlər və fotoşəkillər, həmçinin yerli sənətkarların hazırladıqları kompozisiyalar təşkil edir. Muzeyin əsas zalında “Danışan sənədlər” adlanan lövhədə repressiyanın həyata keçirilməsi ilə bağlı 1920-1930-cu illərdə qəbul edilmiş sənədlərin surətləri verilib. Azərbaycanda repressiyanı “qanunlaşdıran” ilk sənədlərdən biri kimi Bakı şəhər komendantının 1920-ci il 26 may tarixli əmri daha çox diqqəti cəlb edir. Əmrdə əks olunmuş “Hansı evdən güllə atılsa həmin ev top atəşinə tutulacaq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan verənlər tutulduqları yerdə güllələbaran ediləcəklər” müddəası xalqımıza qarşı xüsusi amansızlığı açıq-aydın nümayiş etdirir. Diqqəti çəkən daha bir sənəd SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1934-cü il 1 dekabr tarixli qərardır. Bu qərara əsasən terror aktlarına görə cinayət işlərinin istintaqı və baxılması on gündən artıq olmayan müddətdə başa çatdırılmalı, dindirmələr tərəflərin iştirakı olmadan aparılmalı idi. Bu işlər üzrə hökmlərdən kassasiya şikayəti, həmçinin əfv haqqında vəsatətlərə yol verilmirdi, ölüm cəzası haqqında hökm qəbul edildikdən sonra dərhal yerinə yetirilirdi

Dövlət Sərhəd Xidmətinin inzibati binasında belə bir muzeyin yaradılması yaxşı təsbbüs olsa da, onun genişləndirilməsinə, respublika əhəmiyyətli işğal muzeyinin yaradılmasına ciddi zərurət var. Söhbət yaxın tariximizin yaşadılmasından gedir. 28 aprel işğalının, təxminən 70 il əhatə edən işğal dövrünün heç bir məqamı diqqətdən kənarda qalmamalıdır. Son 200 ildə düçar olduğumuz məhrumiyyətlərdən nəticə çıxartmalıyıq. Keçmişi olmayan bir sıra xalqlar özlərindən saxta “qədim tarix” düzəldirlər, mifik xəritələr tərtib edirlər. Azərbaycan xalqının tarixi isə o qədər zəngindir ki, bütün bu kimi əməllərə əl atmağa heç bir lüzum yoxdur. Yetər ki, tariximizi unutmayaq, unutdurmayaq və onu dünyaya oldüu kimi təqdim edək.

Yeri gəlmişkən, artıq keçmiş sovet respublikalarının bir çoxunda, o cümlədən Tallində (Estoniya), Riqada (Latviya), Tbilisidə (Gürcüstan) belə muzeylər yaradılıb. Həmin muzeylərin milyonlarla ziyarətçisi qeydə alınıb.

### Azərbaycanın müstəqilliyinin ən böyük fədaisi - Ulu Öndərin missiyası heç vaxt unudulmayacaq

Dünyanın bir sıra ölkələri kimi, Azərbaycanın da müstəqillik əldə etməsində, onun qorunmasında və möhkəmləndirilməsində lider amilinin müstəsna rolu olub. Böyük siyasətçi, Vətənini və xalqını çox sevən Heydər Əliyevin fəaliyyəti, aldığı cəsarətli qərarları, sözün əsl mənasında, müstəqillik mücadiləsi kimi səciyyələndirmək mümkündür. Bu böyük şəxsiyyətin istər keçmiş sovet dönəmində, istərsə də sonrakı mərhələdə bütün çalışmalarının əsas hədəfi Azərbaycanın müstəqilliyinin təmin edilməsi olub. O, bu məqsədlə heç vaxt unudulmayacaq müstəsna missiya yerinə yetirib. Əvvəla onu qeyd edək ki, Heydər Əliyev hələ ötən əsrin 60-80-ci illərində Azərbaycana rəhbərlik edərkən keçmiş sovet rejiminin ideoloji qadağalarına rəğmən, respublikamızın gələcəkdə müstəqil yaşaması üçün möhkəm əsaslar yaratmışdı. Sonrakı mərhələdə isə O, xalqın yadaşını təzələməklə cümhuriyyət ideyalarının geniş şəkildə yayılmasına çalışırdı. XX yüzillikdə Azərbaycanın ikinci dəfə müstəqilliyə qovuşmasının əsası da məhz Onun səyləri və cəsarəti sayəsində Naxçıvanda qoyulub.

Məlumdur ki, keçmiş ittifaq rəhbərliyinin getdikcə artan təzyiqləri ilə üzləşən Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışının kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Heydər Əliyev doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. O, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar Respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün çəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Onun təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı. Eyni zamanda, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı bu kimi cəsarətli addımlar kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövrdə hələ sovet ittifaqı, kommunist partiyası fəaliyyət göstərirdi və belə addımların atılması çox təhlükəli idi. Heydər Əliyev isə təhdidlərdən çəkinməyərək respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi, həmçinin ölkənin adı dəyişdirilərək “Azərbaycan Respublikası” adlandırıldı.

### 10 maddədən ibarət bəyannamədə müstəqilliyimizin mühüm prinsipləri əks olunub

Müstəqillik mücadiləsini davam etdirən Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. 1991-ci il avqustun 30-da Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Heydər Əliyev Azərbaycanın müstəqilliyinin elan olunması təklifi ilə çıxış etdi. Bunun nəticəsində həmin sessiyada “Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında” Bəyannamə qəbul edildi. 10 müddəadan ibarət olan sənəddə 1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğu xüsusi vurğulanıb. Sənəddə ölkəmizin reallıqları nəzərə alınmaqla milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulan bütün insan hüquqlarına və əsas azadlıqlarına təminatlar verilib və respublikanın vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyinə çağırış edilib. Eyni zamanda, respublikamızın keçmiş ittifaqın bütün subyektləri ilə dostluq münasibətlərinin bundan sonra da saxlamasının arzu edildiyi, eləcə də beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabər hüquqlu münasibətlər yaratmağa hazır olduğu vurğulanır. Sənədin sonuncu bəndində oxuyuruq: “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olduğunu elan edir”.

Heydər Əliyevin təşəbbüsü ilə 30 avqust 1991-ci il tarixində qəbul olunan bəyannamə sonrakı mərhələdə respublikamızın müstəqilliyi ilə bağlı digər hüquqi sənədlərin hazırlanması və qəbul edilməsi üçün əsas oldu. Həmin ilin oktyabr ayının 18-də Ali Sovet məhz bu bəyannaməyə istinad edilməklə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı”nı qəbul etdi.

Sözügedən bəyannamənin mühüm müddəalarından biri də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlıdır. Burada ölkənin təhlükəsizliyinin, dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsi müqəddəs borc kimi vurğulanır. Bu müqəddəs borcu yerinə yetirən isə Heydər Əliyev yolunun layiqli davamçısı Prezident İlham Əliyev oldu. 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazanılan şanlı zəfərlər sayəsində artıq müstəqil Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub.

*Mübariz ABDULLAYEV*



# Polşanın Azərbaycandakı səfiri XİN-ə çağırılıb

Polşa Respublikasının Azərbaycan Respublikasındakı səfiri Pavel Radomski Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə avqustun 26-da Polşanın ictimai yayım orqanı olan TVP-nin (TVP World) "Eastern Express" verilişində Azərbaycan əleyhinə yayımlanmış süjetdə Azərbaycan dövlətinə və ölkə rəhbərliyinə qarşı yönəlmiş qərəzli, qeyri-obyektiv və tamamilə qəbuledilməz iddiaların yer alması, habelə veriliş zamanı aparıcının təxribat xarakterli davranışı ilə bağlı kəskin etiraz bildirilib, bununla əlaqədar qarşı tərəfə etiraz notası təqdim edilib.

Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi, eləcə də Azərbaycanın regionda davamlı sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi istiqamətində qətiyyətli səylər göstərdiyi bir vaxtda həqiqəti təhrif edən məlumatların yayılmasının Azərbaycan tərəfində sual doğurduğu diqqətə çatdırılıb.

Polşa hökuməti tərəfindən maliyyələşdirilən ictimai yayım orqanında Azərbaycana qarşı mənfi xarakterli məzmunun yayımlanması ölkələrimiz arasında mövcud tərəfdaşlıq ruhuna zidd olan və ikitərəfli münasibətlərə ciddi zərər vurmaq potensialına malik qeyri-dost addım kimi qiymətləndirilib.

Polşa tərəfi Azərbaycanı hədəf alan bu cür təxribatçı kampaniyaların dayandırılması istiqamətində təxirəsalınmaz və təsirli tədbirlər görməyə çağırılıb.

# Azərbaycan-Özbəkistan: iqtisadi əməkdaşlığın yeni formatı

Azərbaycan və Özbəkistan arasında iqtisadi əməkdaşlıq son illərdə ən yüksək səviyyəyə çatıb və ikitərəfli ticari mübadilə dayanmadan artmaqdadır. İki ölkə arasında ticarət dövriyyəsi 2025-ci ildə əvvəlki illə müqayisədə üç dəfədən çox artıb və 795 milyon dollar təşkil edib. 2026-cı ilin yanvar-iyul aylarında isə ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 30 faiz artaraq 202 milyon dollara çatıb. Tərəflər bu rəqəmi qarşıdakı 4 il ərzində daha da artıraraq 1 milyard dollara çatdırmağı hədəfləyir.

Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın 3-cü iclasında tərəflər ticarət dövriyyəsinin rekord həddə çatdırılması barədə anlaşma əldə edib. Bunun üçün möhkəm hüquqi əsas da yaradılıb - "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə Proqram"ı və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında investisiyalar və ticarət sahələrində layihələrin həyata keçirilməsi üzrə Praktiki Fəaliyyət Planı"nı (Yol Xəritəsi)" hədəflərə çatmaq üçün mühüm hüquqi baza deməkdir.

## Prioritet hədəfə çatmaq üçün...

Qarşılıqlı mübadiləni bir neçə dəfə böyütmək üçün resurs imkanları böyükdür və hər iki ölkənin potensialı rekord ticari mübadiləni təmin etməyə imkan verir.

İkitərəfli iqtisadi dövriyyənin artırılmasında biznes qurumları arasındakı əməkdaşlıq da mühüm rol oynayır. Son illərdə intensiv xarakter alan Biznes- forumlar ölkələr arasında ticarət, investisiya, sənaye, kənd təsərrüfatı sahələrində əməkdaşlığın dərinləşdirilməsinə geniş stimullar verməkdədir. Hazırda yeni tərəfdaşlıq çərçivəsində gerçəkləşdirilən investisiya layihələri, Azərbaycanda birgə avtomobil istehsalı və tekstil müəssisələrinin, pambıq klasterinin yaradılması, bank və enerji sahəsində səmərəli əməkdaşlıq qeyd edilən hədəfə çatmaqda güclü potensiallar deməkdir. Eləcə də prioritet hədəfə çatmaq üçün "yaşıl enerji", sənaye və logistika sektorlarında investisiya portfelinin davamlı olaraq genişləndirilməsi, nəqliyyat dəhlizləri ilə daşınmaların həcmlərinin artırılması, yüksək ixrac potensialına malik texnoloji layihələrin icrasının sürətləndirilməsi, sənaye, infrastruktur və texnoloji inkişaf sahəsində təşəbbüslərin həyata keçirilməsinin praktik həllinə nail olunması nəzərdə tutulur.




## Özbəkistanlı iş adamları Azərbaycanın sənaye zonalarında

Məlumdur ki, Azərbaycanın əlverişli investisiya mühiti, həyata keçirilən iqtisadi islahatlar, sənaye zonaları, Ələt Azad İqtisadi Zonası, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr, sərmayədarlar üçün yaradılan imkanlar özbəkistanlı biznes icmasının da marağını cəlb edir. Özbəkistan şirkətləri Azərbaycanda sənaye, ticarət, energetika, nəqliyyat-logistika, kənd təsərrüfatı, turizm və digər istiqamətlər üzrə tərəfdaşlığın genişləndirilməsi üçün imkanlarını səfərbər etməkdədir. Məhz bu amil də imkanların araşdırılması və birləşdirilməsi, birgə layihələrin icrası sayəsində mal mübadiləsinin həcminin yüksəlməsinə dərin zəmin yaradır.

İqtisadi mübadilənin böyüməsində Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Özbəkistanın İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi yanında Xarici İnvestisiyaların Cəlb Edilməsi Agentliyi də mühüm rol oynayır. Həmçinin, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Özbəkistan Ticarət və Sənaye Palatası arasında sıx əməkdaşlıq biznes əlaqələrinin inkişaf etdirilməsi, müxtəlif sahələr üzrə fəaliyyət göstərən sahibkarların nəticəəsaslı layihələr icra etməsi də gələcəkdə əmtəə dövriyyəsinin artmasına töhfələr verəcək.

## Biznesmenlər Şurası yaradılır

Özbəkistan və Azərbaycan hökumətləri iki ölkənin sahibkarları arasında birbaşa əlaqələrin qurulmasına dəstək vermək, birgə investisiya layihələrini təşviq etmək məqsədilə Biznesmenlər Şurası yaratmağı da planlaşdırır. Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Əşrəfxanov bildirib ki, sahibkarlar arasında birbaşa qarşılıqlı fəaliyyəti təmin edəcək Şuranın yaradılması üzərində fəal iş aparılır.

Hazırda yeni təsisatın yaradılması üçün zəruri texniki və hüquqi məsələlər həll edilməkdədir. Şura biznes nümayəndələri arasında birbaşa qarşılıqlı fəaliyyəti təmin etmək, onların üzləşdiyi texniki çətinlikləri və hüquqi məsələlərin operativ şəkildə həllinə nail olmaq, institusional dəstək göstərmək, biznes planlarının realizasiyası istiqamətlərində çevik və təsirli addım atmaq məqsədi daşıyır.

Özbəkistan və Azərbaycanda ikitərəfli və çoxtərəfli iqtisadi layihələri genişləndirməklə həm iqtisadi-ticari münasibətlərin dinamikasını, həm də qarşılıqlı sərmayə yatırımlarının məbləğini artırmaq niyyətindədir. Bu prosesdə iri şirkətlər və investisiya korporasiyaları ilə yanaşı, kiçik və orta biznes icmasının da sərmayə təşviqinə cəlb edilməsinə ehtiyac var. Bu baxımdan Biznesmenlər Şurası bu funksiyanı öz üzərinə götürərək ticarət-sənaye palataları və sahibkarlar assosiasiyalarının xətti ilə koordinasiyanı təmin edəcək, investisiya paketinin formalaşdırılmasına töhfə verəcək.

## "Yaşıl enerji" iqtisadi imkanları genişləndirəcək

İkitərəfli əməkdaşlığın digər perspektivli sahəsi enerji sektorudur. İki ölkənin şirkətləri - SOCAR və "Uzbekneftegaz" ASC Azərbaycan və Özbəkistanda neft yataqlarının birgə işlənməsi, neft-qaz sektorunda layihələrin həyata keçirilməsi və digər sahələrdə əməkdaşlıq edirlər. Gələcəkdə Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə Avropaya elektrik enerjisinin ixracı imkanları nəzərdən keçirilir. Azərbaycan iri elektrik enerjisi istehsalçısı və ixracatçısı kimi öz ərazisindən elektrik enerjisinin tranziti üçün geniş imkanlar açır. 2024-cü ilin mayında imzalanmış Azərbaycan, Özbəkistan və Qazaxıstanın enerji sistemlərinin birləşdirilməsinə dair Əməkdaşlıq Memorandumu bu sahədə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın göstəricisidir.

Özbəkistan və Azərbaycan arasında əlaqələrin digər mühüm şaxəsi "yaşıl enerji" dəhlizində əməkdaşlıqdır. Ötən il Daşkənddə keçirilən görüşdə Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri tərəfindən "Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu" imzalanıb. Sənədə əsasən, enerji səmərəliliyinin artırılması, "yaşıl" iqtisadiyyatın artımını stimullaşdıran inteqrasiya olunmuş regional şəbəkənin yaradılması nəzərdə tutulur ki, bu da gələcəkdə Orta Asiya-Xəzər-Avropa "yaşıl dəhliz"inin yaradılmasına səbəb olacaq. Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə proqnozları kifayət qədər ümidvericidir. Xəzərdə və azad edilmiş ərazilərdə böyük potensiallar var. Təkcə Xəzər dənizində külək sayəsində enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Özbəkistanın da geniş çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür. Azərbaycan bərpa olunan enerji mənbələrinin ölkənin enerji balansındakı payını 2026-cı ilədək 24 faizə, 2028-ci ilə qədər isə 30 faizə çatdırmağı planlaşdırır.

Bir sözlə, Azərbaycan və Özbəkistan arasında yeni iqtisadi gündəliyin icrası əsas iqtisadi hədəfə - 1 milyard dəyərində əmtəə mübadiləsinin gerçəkləşməsinə imkan verəcək.

**E.CƏFƏRLİ**

# ABB xarici maliyyə bazarlarında mövqeyini gücləndirir

## Özbəkistanın "Davr Bank"ının səhmlərinin əldə edilməsi Azərbaycan bankının beynəlxalq imicini möhkəmləndirəcək

Məlum olduğu kimi Prezident İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin (ABB) Özbəkistanın "Davr Bank"ının səhmlərinin 51 faizinin əldə edilməsinə dair anlaşma əldə edilib. Dövlət başçılarının iştirakı ilə "ABB Davr" Bank layihəsinin açılışı olub. Bu, bank və maliyyə sektorunda mühüm hadisə olmaqla, aparıcı Azərbaycan bankının Özbəkistan bazarında yer alması deməkdir. Layihə ABB-nin Özbəkistanın kommersiya banklarından olan Davr Bankın əsas nəzarət səhm paketini əldə edərək bu ölkənin bazarında "ABB Davr" Bank adı ilə fəaliyyətini nəzərdə tutur. ABB 2026-2028-ci illər üzrə strateji inkişaf planında nəzərdə tutulmuş coğrafi genişlənmə hədəfinə uyğun olaraq Özbəkistanın maliyyə bazarında fəaliyyət göstərəcək.

**Maliyyə sahəsində də əbədi dostluğun nümunəsi**

Beynəlxalq Bankın yeni strateji dövrdə qarşıya qoyduğu coğrafi genişlənmə hədəfinə doğru ilk tarixi addımı məhz Özbəkistandan başlaması isə əsil qardaşlığın təranümü, maliyyə sahəsində də əbədi dostluğun nümunəsidir. "ABB Davr" Bank brendi ilə Özbəkistanın bütün regionlarında korporativ və fərdi müştərilərə universal maliyyə xidmətləri göstərəcək. ABB Maliyyə Qrupu son illərdə özünü doğrultmuş korporativ idarəetmə sistemini, rəqəmsallaşma, süni intellektəsaslı innovativ layihələrini, kiçik və orta bizneslər üçün universal maliyyə həllərini Özbəkistan bazarında da geniş tətbiq edəcək. 40 milyona yaxın əhalisi olan, iqtisadiyyatı ardıcıl sürətlə inkişaf edən Özbəkistanın bank sektorunda yeni təcrübələr yaratmağa çalışacaq. Xüsusilə ölkədəki kiçik və orta bizneslərin inkişafı üçün əlavə imkanlar açacaq.

Bu bazarda məqsədyönlü fəaliyyət ABB-yə də böyük imkanlar qazandıracaq. Tanınmış Azərbaycan brendi olan ABB Maliyyə Qrupunun regional və beynəlxalq imicini daha da möhkəmləndirəcək. Yeni tərəfdaşlıq Azərbaycanın bank sektorunun nəhənginin təcrübəsinin, innovativ texnologiyalarının və dayanıqlı kapitalının və qabaqcıl maliyyə məhsullarının "Davr Bank"ın müştərilərinə təqdim etməsinə imkan verəcək.

"ABB Davr" layihəsi Azərbaycanın bank sektorunun aparıcı simasının Özbəkistanda uzunmüddətli fəaliyyətinin başlanğıcı olmaqla bərabər, Mərkəzi Asiyanın digər ölkələrinin maliyyə sistemində də yer almaq planlarına hesablanıb. Heç şübhəsiz ki, ABB növbəti mərhələdə bu region ölkələrinin bank icması ilə yaxın tərəfdaşlıq sinerjisi qurmaqla, biznes, vətəndaşlar, eləcə də ölkə iqtisadiyyatı üçün etibarlı maliyyə tərəfdaşı statusunu qazanacaq.

Onu da qeyd edək ki, ABB-nin xarici bazarlarda, Özbəkistanın aparıcı banklarından birində səhmdar olması gələcəkdə əldə ediləcək mənfəətin bir hissəsinin dividend kimi Azərbaycanın dövlət büdcəsinə köçürülməsini də təmin edəcək ki, bu da ölkə iqtisadiyyatının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

**Körfəz ölkələrinin maliyyə bazarlarında**

ABB nüfuzlu maliyyə institutu kimi artıq beynəlxalq bazarlarda öz mövqeyini möhkəmləndirməkdədir. Beynəlxalq imicin və likvidlik mövqeyinin gücləndirilməsi, xarici bazarlardan daha əlverişli şərtlərlə sərfəli maliyyə resurslarının əldə olunması, korporativ müştərilərin bank platforması vasitəsilə xarici bazarlardakı investisiya imkanlarından yararlanması kimi məqsədlərə nail olan bank son illərdə kapital coğrafiyasını genişləndirməkdədir. Bu əməkdaşlıq modelinə uyğun olaraq Beynəlxalq Bankın təkcə Körfəz ölkələrinin maliyyə bazarlarından cəlb etdiyi vəsaitin həcmi 230 milyon dollara çatıb. Əvvəl 100 milyon dollarlıq maliyyə vəsaiti cəlb edən qurum sonradan tərəfdaşlar tərəfindən banka daha böyük həcmdə vəsait ayırmaq təklif edilib. Cəlb edilən vəsait iri biznes layihələrinin, eləcə də kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinə yönəldiləcək .

Bu anlaşmalar Azərbaycana, ölkənin bank sektoruna və ABB-yə olan beynəlxalq etimadın göstəricisi hesab edilə bilər. Bu cür sindikativ kredit ABB-nin strateji inkişaf planına uyğun olaraq real sektorun, xüsusilə ixracyönümlü iri layihələrin maliyyələşdirilməsinə dəstək verir. Əlverişli maliyyə şərtləri ilə belə iri həcmdə vəsaitin cəlb olunması ABB-nin maliyyələşdirmə imkanlarını genişləndirir və bizneslər üçün maliyyə resurslarını daha əlçatan edir. Xarici bazarlarda ABB-yə olan yüksək etimad isə uzunmüddətli vəsaitlərin cəlbinə, investor sayının və regional əhatə dairəsinin genişlənməsinə imkan yaradır. Məhz bu əlverişli mühiti qiymətləndirən bank rəhbərliyi gələcəkdə beynəlxalq maliyyə bazarlarından 300-500 milyon dollar məbləğində əlavə vəsait cəlbetmə imkanlarını nəzərdən keçirir.




Azərbaycan iqtisadiyyatının inkişafına və dünyaya inteqrasiyasına töhfə verməyi strateji hədəflərindən biri hesab edən ABB-nin xarici maliyyə bazarlarında iştirakı bankın beynəlxalq imicini daha da yüksəldir, biznesi maliyyələşdirmə potensialını gücləndirir, likvidlik mövqeyinə, gəlirliliyinə müsbət təsir göstərir. Xarici bazarlarda ABB-yə olan yüksək inam uzunmüddətli vəsaitlərin cəlbinə, investor sayının və regional əhatəliliyinin genişlənməsinə imkan yaradır.

**"İlin ən yaxşı bankı" mükafatları**

Onu da xatırladaq ki, Azərbaycanın bank nəhəngi maliyyə dünyasının ən nüfuzlu nəşrlərindən olan "The Banker" jurnalı tərəfindən bir neçə il əvvəl "İlin bankı" mükafatının qalibi elan edilib. ABB strateji inkişaf nailiyyətlərinə, o cümlədən tətbiq etdiyi yeni texnologiyalara, məhsul və xidmətlərinə, güclü maliyyə göstəricilərinə görə, bu mükafatı qazanıb. Həmçinin, ABB ötən il məşhur "Global Finance" jurnalı tərəfindən "İlin ən yaxşı bankı" mükafatının qaliblər sırasında yer alıb. Bank bu mükafata məsuliyyətliliyinə, əhatə dairəsinə, qurduğu strateji tərəfdaşlıqlara, son illərdə əldə etdiyi inkişaf nailiyyətlərinə, məhsul və xidmətlərində tətbiq etdiyi innovasiyalara, o cümlədən süni intellekt həllərinə görə layiq görülüb. Qiymətləndirmə zamanı ABB-nin fəaliyyəti haqqında səhm, kredit reytinqi analitiklərinin, digər bank ekspertlərinin rəyləri də nəzərə alınıb.

2026-cı ilin avqust ayında isə ABB "The Brandon Hall Group" beynəlxalq təşkilatının Mükəmməllik Mükafatlarına layiq görülüb. Bank "Təlim və inkişaf üzrə rəqəmsal inkişafın dəstəklənməsi" və "İstedadların idarə olunması üzrə ən yaxşı idarəetmə modeli" kateqoriyasında 2 mükafata layiq görülüb. ABB bu mükafatları istedadların idarə olunması və rəqəmsal sahədə onların inkişafının dəstəklənməsi istiqamətində həyata keçirdiyi ardıcıl layihələrə görə qazanıb.

**E.CƏFƏRLİ**

# E-ticarətlə bağlı yeni vergi tələbi

## Xarici rəqəmsal platformalar sentyabrın 1-dən vergiyə cəlb olunacaq

Sentyabrın 1-dən elektron ticarətlə bağlı yeni vergi tələbi qüvvəyə minəcək. Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, Azərbaycanda elektron qaydada xidmət göstərən və ölkə üzrə illik dövriyyəsi 10 min dollardan çox olan qeyri-rezident rəqəmsal xidmət təchizatçıları 30 gün ərzində vergi orqanında elektron qeydiyyatdan keçməlidir. Belə ki, illik dövriyyəsi 10 min dolları keçən qeyri-rezident platforma qeydiyyatdan keçərsə, fiziki şəxslərə göstərdiyi elektron xidmət üzrə ƏDV-ni hesablayıb büdcəyə ödəyəcək.

Qaydalar İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təlimatlarında müəyyən olunmuş tövsiyələri əhatə edən, daxili bazarda fiziki mövcudluğu olmadan rəqəmsal xidmət sahəsində fəaliyyət göstərən subyektlərin vergiyə cəlb edilməsinin səmərəliliyini artıran, habelə qabaqcıl ölkələrin təcrübələri nəzərə alınmaqla müəyyənləşib.

Yeni dəyişikliklərin başlıca məqsədi sahibkarlar və rəqəmsal xidmət bazarında fəaliyyət göstərən xarici şirkətlər üçün vergi öhdəliklərini daha dəqiq müəyyənləşdirilməsi, e-ticarət platformalarının vergiyə cəlb olunmasının təmin edilməsidir. Dəyişiklik, eyni zamanda, rəqəmsal iqtisadiyyat üzərində nəzarətin gücləndirilməsi ilə əlaqədar aparılan islahatların tələblərindən biridir. Digər mühüm məqam vergi bazasının iqtisadiyyatın rəqəmsallaşmasına uyğunlaşdırılması, rəqəmsal iqtisadiyyat quruculuğunda e-ticarətin hüquqi bazasının formalaşdırılmasıdır. Ümumilikdə, tətbiq olunan yeni mexanizm rəqəmsal xidmətlər sahəsində vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi öhdəliklərinin icrasının asanlaşdırılmasına və şəffaflığın artırılmasına xidmət edir.

### Ədalətli vergi yanaşması

Azərbaycanda rəqəmsal infrastruktur gücləndirilir, yeni iqtisadi model rəqəmsal xidmətlərin ticari dövriyyəsinə nəzarətin artırılmasını da labüd edir. Mövcud vəziyyət onu göstərir ki, e-ticarət bazarında dövriyyənin vergiyə cəlb olunması sahəsində kifayət qədər nizamsızlıq var, xarici platformalar gəlirlərini vergidən gizlədir. Hazırda faktiki olaraq rezident şirkətlər vergiyə cəlb edilib, qeyri-rezidentlərin isə vergidən kənarda qalması e-ticarət sektorunda sahibkarlar üçün sanki ədalətsizlik kimi səciyyələndirilə bilər. Bu baxımdan ölkəmizdə fəaliyyət göstərən yerli şirkətlərlə yanaşı, xarici şirkət və platformaların da analoji olaraq vergi öhdəliyinə dəvət edilməsi tamamilə qanunauyğun, vahid vergi yanaşması deməkdir. Vergi Məcəlləsinə yeni dəyişikliyin edilməsi həmin sahədə mövcud olan intizamsızlıqları tam aradan qaldırmaq məqsədi daşıyır.

Qeyri-rezidentlər üçün 10 min dollarlıq dövriyyə həddinin müəyyənləşdirilməsi isə həm inzibatçılıq, həm də kiçikhəcmli xidmətlərin əlavə yükə məruz qalmaması baxımından məqsədəuyğundur. Bu tədbirlər həm də Azərbaycanda rəqəmsal xidmətlər bazarındakı dövriyyənin real dəyərini müəyyən etməyə imkan verəcək, vergi bazasını genişləndirəcək, dövlət büdcəsinə daxilolmalara müsbət təsir edəcək.

### Vergi Xidməti kommunikasiya işləri aparır

Yeni qaydaların tətbiqinə hazırlıq məqsədilə Dövlət Vergi Xidməti tərəfindən Azərbaycanda elektron xidmətlər göstərən qeyri-rezident elektron ticarət platformaları ilə məlumatlandırma və kommunikasiya işləri aparılır. Hazırda qeydiyyat prosesi davam edir. Qeydiyyata alınmış elektron ticarət platformaları barədə məlumat Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilir və bu günədək qeydiyyatdan keçmiş şirkətlərin siyahısı ilə həmin səhifədə tanış olmaq mümkündür.

Vergi Xidməti bəyan edir ki, yeni mexanizm yalnız vergi orqanlarında uçotda olmayan şəxslərə göstərilən elektron xidmətlərə şamil edilir. Belə şəxslərə təqdim edilən rəqəmsal xidmətlər üzrə ƏDV qeyri-rezidentlər tərəfindən dövlət büdcəsinə ödəniləcək.

Rəqəmsal xidmətlərdən sahibkarlıq məqsədilə istifadə edən və vergi uçotunda olan şəxslər qeyri-rezident elektron ticarət platformasının sistemində VÖEN-lərini düzgün qeyd etməlidirlər. VÖEN-lər daxil edildiyi halda qeyri-rezident elektron ticarət platforması ƏDV-ni xidmətin dəyərinə əlavə etmir və vergi ödəyicisindən tutmur, xidmətdən istifadə edən vergi ödəyicisi isə müvafiq ƏDV-ni qanunvericilikdə nəzərdə tutulmuş qaydada özü hesablayaraq dövlət büdcəsinə ödəyir. Buna görə də vergi ödəyiciləri xidmətlərdən istifadə edərkən vergi statuslarına dair məlumatları düzgün və tam təqdim etməlidirlər.



### “Netfliks”, “eBay”, “Zoom” vergi uçotuna alındı

Yeni mexanizmin əhatə etdiyi elektron xidmətlərin dairəsi də müvafiq qanunvericiliklə müəyyən edilib. Belə ki, Nazirlər Kabinetinin 30 oktyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş “İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası”na əsasən, elektron ticarət çərçivəsində təqdim edilən iş və xidmətlərə elektron kitabların, musiqi, audio və video materialların, qrafik təsvirlərin, virtual oyunların və proqram təminatlarının yüklənməsi, internetdə reklamların yerləşdirilməsi, eləcə də internet vasitəsilə göstərilən digər oxşar xidmətlər aiddir.

Qeyd edək ki, indiyə qədər ölkəmizdə elektron qaydada rəqəmsal xidmət təqdim edən 10-dan artıq qeyri-rezident uçota alınıb. Onların sırasında “Apple Limited”, “Adobe Systems Software Ireland Limited”, “Sony”, “Hyperconnect LLC”, “Tinder LLC”, “Epic Games Commerce GmbH”, “Chess.Com LLC”, “Xsolla”, “Formula One Digital Media Limited” kimi şirkətləri göstərmək olar.

Vergi Məcəlləsinə edilmiş dəyişikliyin qüvvəyə minməsinə bir neçə gün qalmış bir sıra qeyri-rezident şəxslər də ƏDV məqsədləri üçün elektron vergi uçotuna alınmaq barədə vergi orqanına müraciət edib və vergi uçotuna alınmalar başa çatıb. Onların sırasında ABŞ-ın “Anthropic, PBC” və “Aghanim Inc.”, İsveçrənin “eBay Marketplaces GmbH”, eləcə də Niderlandın “Netfliks International B.V.”, Niderlandın “Zoho Corporation B.V.”, ABŞ-nin “Zoom Communications, Inc.” və “OpenAI OpCo, LLC” kimi tanınmış beynəlxalq rəqəmsal xidmət təchizatçısı yer alır.

**E.CƏFƏRLİ**

# Sığorta bazarı böyüyür, xidmət isə....

2026-cı ilin yanvar-iyul aylarında Azərbaycanda fəaliyyət göstərən 16 sığorta şirkətinin xətti ilə 1 milyard 6 milyon 409 min manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 7,3 faiz çoxdur. Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 671 milyon 436 min manat təşkil edib. Bu isə illik müqayisədə 26,9 faiz çoxdur. 7 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 66,7 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 56,4 manat olub.

Qeyd edilən dövr ərzində sığorta şirkətlərinin 11-nin sığorta ödənişlərində artım qeydə alınıb. Ödənişlərini ən çox artıran şirkət “İpək Yolu Sığorta” ASC olub, şirkətin ödənişləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 209 min manat və ya 4,4 dəfə artaraq 271 min manata çatıb. “Atəşgah Həyat Sığorta” ASC-nin ödənişləri 27 milyon 53 min manat (69,7 faiz) artaraq 65 milyon 881 min manata, “Qala Həyat Sığorta” ASC-nin ödənişləri 1 milyon 142 min manat (56,8 faiz) artaraq 3 milyon 152 min manata yüksəlib. “Azərbaycan Sənaye Sığorta”nın ödənişləri 3 milyon 708 min manat (53,6 faiz) artaraq 10 milyon 621 min manata bərabər olub.

“PAŞA Həyat Sığorta” ASC ödənişləri 91 milyon 668 min manat (27,9 faiz) artaraq 420 milyon 178 min manata, “PAŞA Sığorta” ASC-nin ödənişləri isə 18 milyon 971 min manat (24,3 faiz) artaraq 96 milyon 884 min manata çatıb.

Ödənişləri artan şirkətlər sırasında “A-Qroup Sığorta”, “Meqa Həyat Sığorta” ASC, “Atəşgah Sığorta” və “Meqa Sığorta”da yer tutur. Sığorta ödənişləri artan şirkətlərin siyahısında sonuncu yeri “Xalq Sığorta” ASC tutub.

### Könüllü sığorta yığımı rekord həddə çatıb

Sığorta bazarının böyüməsində son illərdə müvafiq qanunvericiliyə edilmiş dəyişikliklər də mühüm rol oynayıb. Xüsusilə də aqrar sığorta və daşınmaz əmlak sığortası ilə bağlı yeniliklərdən sonra sığorta şirkətləri bu istiqamətdə də yığım paketlərini aktivləşdirib.

Sığorta yığımlarında könüllü ödəmələrin həcmi daha böyük olub və ilk dəfə olaraq 823 milyon manatı ötüb. Könüllü sığorta yığımları ötən ilin eyni dövrü ilə müqayisədə 106,7 milyon manat və ya 14,9 faiz artıb. Eyni zamanda, bu sahə üzrə sığorta ödənişləri də yüksəlib. Belə ki, ödənişlərin həcmi illik müqayisədə 127,6 milyon manat və ya 28,4 faiz artaraq 576,274 milyon manata çatıb. Beləliklə, 2026-cı ilin yanvar-iyul aylarında könüllü sığorta bazarında toplanan hər 100 manat sığorta haqqının 70 manatı müştərilərə ödənilib.

Ümumilikdə, könüllü həyat, fərdi qəza və xəstəlik sığortası üzrə yığımlar və ödənişlərdə daha çox artım müşahidə edilir. Avtomobil, daşınmaz əmlak üzrə, işçilərin peşə fəaliyyəti ilə bağlı olan icbari sığortada olan yığımlarda artımlar olsa da, könüllü sığorta yığımlarından geri qalır. Bu da onu təsdiqləyir ki, adılndan da göründüyü kimi insanlar məcburi və ya inzibatı üsullara yox, azad seçimə, könüllülüyə daha çox üstünlük verirlər. Onlar könüllü olaraq, həyatlarını, sağlamlıqlarını, daşınar və daşınmaz əmlakını, yaxud digər mal və xidmətləri sığortalamaq üçün seçimlər əsasında qərar verirlər.

Ümumilikdə, sığorta üzrə rəqəmlər onu göstərir ki, Azərbaycanda sığorta bazarı son illərdə əhəmiyyətli dərəcəd böyüyüb, sığorta sektorunun toplam illik gəlirləri davamlı olaraq hər ay ən azı 10 milyon manat yüksəlir.

### Hər 1 manatın 67 qəpiyi xərclənir

Mövcud rəqəmlər onu göstərir ki, sığorta şirkətlərinin müştərilərdən və müəssisələrdən hər topladığı 1 manat sığorta haqqının təxminən 67 qəpiyi xərclənir, qalan 33 qəpiyi onların mənfəəti kimi aktiv portfelində qalır. Ancaq buna baxmayaraq, sığorta şirkətlərinin təqdim etdiyi xidmət çeşidlərində ciddi dönüş müşayiət olunmur, müştərilərə xidmətin keyfiyyəti daha da aşağı düşür, yeni xidmət alətləri tətbiq olunmur. Bir çox hallarda vətəndaşlara dəymiş zərər zamanı (sığorta hadisəsi) sığorta haqqı ödənilmir.

Hazırda sığorta sektorunda ən çox müşahidə edilən nöqsanlar mənzil - daşınmaz əmlak bazarı və avtomobil sığortası ilə bağlıdır. Hər 2 sahə üzrə sığorta hadisəsi zamanı zərərin dəyərinin təyin edilməsi və sığorta hadisəsinin aktlaşdırılmasında ciddi nöqsanlar müşahidə edilir. Dünyada sığorta şirkətlərinin xərc paketində ən üstün yer tutan sahələrdən biri daşınmaz əmlakın sığortasıdır, ancaq ölkəmizin sığorta bazarında şirkətlər bu sahəyə çox az diqqət ayırır. Sığorta şirkətlərinin əmlakla bağlı sığorta ödənişləri yetrəli həcmlərdə deyil və bu, ona dəlalət edir ki, şirkətlər bu sahəni özləri üçün riskli hesab edir. Eləcə də, kasko sığortasında risklər yüksəkdir. Bütün bunlar xarakterik hallar kimi hər il davam edir və sığorta şirkətlərinin bu xidmətlər üzrə sığortadan imtinasının nəticəsidir ki, onlar yığımlarının təxminən 40 faizini qoruyub saxlayır.




### Ekoloji sığorta sahəsi “axsayır”...

Sığorta şirkətləri ekoloji sığorta məhsullarına da az yer ayırır, iqlim sığortası paketi demək olar ki, tətbiq olunmur. Halbuki dünyada sığorta bazarının əhəmiyyətli hissəsi, təxminən 35 faizi ekoloji sığorta paketlərindən ibarətdir. Ələlxüsus da, son illərdə qlobal iqlim dəyişikliyinin yaratdığı təbii fəlakətlər qarşıya yeni sığorta məhsullarını çıxarır, qlobal sığorta holdinqləri bu sahənin inkişafını prioritet hesab edir. Bundan başqa, son illərdə iri sığorta qrupları iqlim dəyişikliyinə səbəb olan istixana qazlarının emissiyasının azaldılması istiqamətində beynəlxalq öhdəliklərə uyğun olaraq, yeni sığorta məhsullarını hazırlayaraq reallaşdırır.

Bütün bunlar Azərbaycanın sığorta sektoru üçün də yeni çağırışlar deməkdir. “Azərbaycan Respublikasının Milli Yaşıl Taksonomiyası” sənədi təsdiq edilib və strategiyanın əsas istiqamətlərindən biri “yaşıl maliyyə” alətlərinin, o cümlədən, “yaşıl sığorta”nın tətbiqinin genişləndirilməsidir. Bu baxımdan sığorta şirkətlərinin üzərinə böyük məsuliyyət və öhdəlik düşür. Son illərdə qlobal iqlim fəsadlarının kənd təsərrüfatı məhsullarının istehsalına təsirlərinin artdığını nəzərə alsaq, sığorta şirkətləri üçün bu sahə əsas prioritetlərdən biri olmalıdır.

**E.CƏFƏRLİ**

# AKİ-nin növbəti konfransı sentyabrda baş tutacaq




Avqustun 29-da Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) İdarə Heyətinin iclası keçirilib. İclasda İttifaqın cari fəaliyyəti, qarşıda duran təşkilati məsələlər, üzvlük məsələləri və növbəti Konfransın keçirilməsi ilə bağlı məsələlər müzakirə olunub. İclasın yekununda bir sıra qərarlar qəbul edilib. Azərbaycan Kinematoqrafçılar İttifaqı sədrinin səlahiyyətlərinin müvəqqəti olaraq Şəfiqə Məmmədovaya həvalə edilməsi yekdilliklə qərara alınıb.

İclasda, eləcə də, Azərbaycan Kinematoqrafçılar İttifaqının Konfransının keçirilməsi məsələsi də müzakirə olunub. Qərara alınıb ki, Azərbaycan Kinematoqrafçılar İttifaqının Konfransı 11 sentyabr 2026-cı il tarixində keçirilsin.

Bununla yanaşı, təqdim edilmiş siyahı əsasında İttifaqın üzvlük siyahısının dəqiqləşdirilməsi, eləcə də bəzi üzvlərin fəaliyyətinə xitam verilməsi məsələsinə baxılıb.

İdarə Heyətinin üzvü, İcraçı katib Əli İsa Cabarovun istefa ərizələrinə baxılıb və ərizə İdarə Heyəti tərəfindən qəbul edilib.

İclasda Şəfiqə Məmmədovanın Azərbaycan Kinematoqrafçılar İttifaqı sədrliyinə vahid namizəd kimi təsdiq edilməsi barədə də yekdilliklə qərar qəbul olunub.

Qeyd edək ki, İdarə Heyətinin iclasında qəbul edilən qərarlar İttifaqın fəaliyyətinin təşkilati baxımdan tənzimlənməsi və qarşıdakı Konfransa hazırlığın təmin edilməsi məqsədi daşıyır.

# Azərbaycanın turizm imkanları Qazaxıstan və Özbəkistanda təqdim olunub



Dövlət Turizm Agentliyi yanında Azərbaycan Turizm Bürosunun (ATB) təşkilatçılığı ilə 21-27 avqustda Qazaxıstan və Özbəkistanda tanıtım xarakterli silsilə tədbirlər keçirilib.

Agentlik xəbər verir ki, “Azərbaycan Hava Yolları” QSC (AZAL) daxil olmaqla 8 yerli turizm sənayesi nümayəndəsinin iştirakı ilə baş tutan proqram Şımkent, Almatı, Astana və Daşkənd şəhərlərini əhatə edib.

Qazaxıstan və Özbəkistanda keçirilən tədbirlərdə ümumilikdə 400-dən çox turizm agentliyi, turoperator, aviaşirkət, hotel, media qurumu və turizm sənayesinin digər nümayəndələri iştirak edib.

Tədbirlər çərçivəsində Azərbaycanın ilboyu zəngin turizm imkanları, turizm sahəsindəki son yeniliklər və müxtəlif turizm məhsulları barədə təqdimatlar nümayiş olunub. İştirakçılara Xəzər dənizi sahilində istirahət, dağ-xizək mərkəzləri, sağlamlıq turizmi, qastronomiya, macəra və aktiv istirahət, mədəni turizm imkanları, eləcə də ölkənin müasir turizm infrastrukturu haqqında məlumat verilib.

Silsilə tədbirlər çərçivəsində keçirilən işgüzar görüşlər Qazaxıstan və Özbəkistanın turizm sənayesi nümayəndələri ilə azərbaycanlı tərəfdaşlar arasında əməkdaşlıq perspektivlərinin və birgə layihələrin həyata keçirilməsi imkanlarının müzakirəsi üçün platforma rolunu oynayıb. Tədbirlər zamanı, həmçinin iştirakçılara Azərbaycanın zəngin mədəniyyəti, milli mətbəxi və ənənəvi rəqsləri təqdim olunub.

Bu ilin yanvar-iyul aylarında Qazaxıstandan Azərbaycana səfər edənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 5,5 % artaraq 62 079 nəfərə çatıb. Eyni dövrdə Özbəkistandan Azərbaycana səfər edənlərin sayı isə 40,2 % artaraq 42 288 nəfər təşkil edib.

# 104 illik tarix!

## Qardaş ölkənin yenilməzlik salnaməsi...

Hər xalqın tarixində elə günlər var ki, zaman keçsə də, həmin tarixlərin daşıdığı məna və milli yaddaşdakı yeri dəyişmir. Türkiyə üçün belə mühüm günlərdən biri də 30 avqustdur. 104 il əvvəl, 1922-ci ildə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə aparılan mübarizə nəticəsində Türkiyə torpaqları yadelli qüvvələrin işğalından qurtuldu. Bu şanlı tarixin səhifələrinə nəzər saldıqda türk xalqının öz torpağına bağlılığını, azadlıq və müstəqillik uğrunda göstərdiyi əzmkarlığı, misilsiz cəsarətini və Vətən sevgisini aydın şəkildə görmək mümkündür...

Bir xalqın özünü ən qorxulu, ölümcül məqamda belə ayaqda saxlaması, ümidsizləşməməsi, təhlükəyə qarşı durmaq gücü, yenilməzliyi onun qeyri-adiliyindən xəbər verir. Daim fitri imkanlarına inanan, imkansızlıqdan üstün olan, yenilməyi ölüm sayan türklər mahiyyətcə hər zaman qələbə haqqında düşünüb və çox hallarda buna nail olub. Türkün böyüklüyünü, xarakterini, insansevərliyini müasir dünya gözəl tanıyır.

### Zəfərə gedən yol...

Birinci Dünya müharibəsində Osmanlı Türkiyəsi də bütün qüvvələrini səfərbər edərək müharibəyə qoşuldu. Bu qanlı müharibə Türkiyəni zəif salmışdı. Antanta dövlətləri Osmanlını bu savaşda tam məğlubiyyətə uğratmışdı. 1918-ci il oktyabrın 30-da qalib dövlətlərlə Türkiyə arasında “Mudros” adlı təslimçi barışıq sazişi imzalandı. Bu anlaşmaya əsasən, Türkiyə parçalanırdı. Bununla da işğalçı ölkələr istədiyi şəkildə böyük türk torpaqlarında hegemonluq edə bilərdi. Ölkənin şərqində Ermənistan dövləti yaratmaq da bu plana daxil idi. Bu planları həyata keçirmək üçün Yunanıstan istilasından bəhrələnirdilər. 1919-cu il mayın 15-də yunan qoşunları imperialist ölkələrin hərbi gəmilərinin köməyi ilə İzmiri işğal etdi. İngilis qoşunları isə İstanbulun içərilərinə doğru irəliləyirdi.

İzmirin işğalından sonra işğalçı dövlətlərin Türkiyəni parçalamaq siyasətinə qarşı ölkədə milli azadlıq hərəkatı başladı. Artıq müharibədən yorulmuş Osmanlı türkləri yenidən özlərində güc taparaq düşmənə müqavimət göstərirdi. Beləliklə, Mustafa Kamal Paşanın rəhbərliyi ilə 1919-cu il mayın 19-da Türkiyənin milli qurtuluş savaşı başladı.

Mustafa Kamal Paşa Osmanlı ordusunun ən istedadlı generallarından biri idi. Onun rəhbərliyi altında birləşən müqavimət qüvvələri 1920-ci il aprelin 23-də Ankarada Türkiyə Böyük Millət Məclisinə toplanırlar. Mustafa Kamal Paşa məclisin sədri seçilir. Bundan sonra parlament Milli Qurtuluş Savaşının başlandığını elan edir. Bu ağır və çətin günlərdə ümumi səfərbərlik elan olunur. Qadın, gənc, uşaq, yaşlı demədən hər kəs könüllü olaraq ordu sıralarına yazılır, vətəninin, torpağının xilasına tələsirdi. Amma içəridən bu hərəkata mane olan düşmənlərin də sayı az deyildi. Bələləri xəyanətdən və yunan tərəfə keçməkdən çəkinmirdilər ki, bu da Atatürkün planlarına mane olurdu. Buna baxmayaraq, həmin günlərdə Mustafa Kamal Paşa üzünü xalqına tutaraq bildirdi: “Efendiler! Dahilde ve hariçteki düşmanlarımız ister çok, ister az olsun, faaliyetlerinin genişliği ne olursa-olsun, kesin başarı, son başarı meşru bir amaç izleyenler olacaktır”.



26 avqust 1922-ci il tarixində sabah saat 05.30-da topçuların atəşiylə Kocatəpədə Meydan Savaşı başlayır. Savaşı Baş Komandan Mustafa Kamal Paşa idarə etdiyi üçün bu savaş “Meydan Savaşı” adını alır. Minlərlə türk əsgəri, gənci, qadını, qocası şəhid olur bu savaşda. Amma bir qarış torpaq düşmənə güzəştə gedilmir.

Türkiyənin böyük qurbanlar və dağıntılar bahasına siyasi müstəqilliyini əldə etməsi onun çoxəsrlik tarixində dönüş nöqtəsi oldu. Türk xalqının milli müstəqillik uğrunda apardığı azadlıq mübarizəsi və imperialist dövlətlər üzərindəki tarixi qələbəsi ilə milli-dünyəvi, müstəqil türk dövləti təşəkkül tapdı. Bu hadisə Şərq xalqlarının milli-azadlıq hərəkatına da güclü təkan oldu. 1922-ci ilin yayında Atatürk demişdi: “Türkiyənin bugünkü mübarizəsi yalnız özünün azadlığı naminə olsaydı, bəlkə daha qısa və daha az qanlı olar və tez də qurtarardı. Türkiyə qəti və ciddi səylər sərf edir. Çünki apardığı mübarizə məzlum millətlərin, bütün Şərqin mübarizəsidir”.

### Böyük Zəfərə qardaş dəstəyi

Azərbaycan o ağır illərdə də maddi və mənəvi yardımını qardaş Türkiyədən əsirgəmədi. Bu dönəmin tədqiqatçıları yazırlar ki, Mustafa Kamal Paşa 1921-ci il martın 17-də, yəni 2-ci İnönü savaşından öncə Nəriman Nərimanova məktub ünvanlayaraq, maliyyə dəstəyinə böyük ehtiyac duyulduğunu bildirmişdi. N.Nərimanov dərhal büdcədə olan 500 kiloqram qızılı Ankaraya, xeyli miqdarda silah-sursatı da Anadoluya göndərir.

Bütün bunlar qardaşın qardaşa köməyi, vəfa borcu idi. Görkəmli dövlət xadimi Nəriman Nərimanovun bu barədə 1921-ci il martın 23-də Mustafa Kamal Atatürkə yazdığı məktubunda izahı daha gözəl verilir. N.Nərimanov yazırdı: “Paşam, türk millətinin bir ənənəsi vardır: qardaş qardaşa borc verməz. Qardaş qardaşın əlindən tutar, biz qardaş xalqlarıq. Hər zaman və hər şəraitdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışırıq. İmkanımız çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın, başqa bir qardaşı üçün etmək istədiyindən başqa bir şey deyil”.

Bir əsr əvvəl Türkiyənin Böyük Zəfərinə göstərilən yardım Azərbaycanın əlindən vəfa borcu olaraq tutdu. Dar gündə qardaşın qardaşa vəfa borcunu yerinə yetirən Türkiyə 44 günlük Vətən savaşında Azərbaycanın yanında oldu, xalqımıza mənəvi və siyasi dəstəyini əsirgəmədi. Türk millətinin Meydan Savaşında əbədi azadlığına qovuşması hər il 30 avqust Zəfər bayramı kimi respublikamızda da qeyd olunur. Artıq 6 ilə yaxındır ki, türk dünyası İlham Əliyevin sərkərdəliyi ilə qüdrətli Azərbaycan Ordusunun 44 günlük Vətən savaşında qazandığı Böyük Zəfəri də bayram edir.

*Yeganə BAYRAMOVA*

# Köçəryan həbs edildi - taleyin ironiyası, ədalətin təntənəsi

Zaman ən böyük hakimdir, illər boyunca tələsmədən hər kəsi sanki ələkdən keçirirək öz qiymətini verir və layiq olduğu yeri göstərir. Eynən Ermənistanın sabiq prezidenti Robert Köçəryanın taleyi kimi. Nəhayət, bu günlərdə Azərbaycan cəmiyyətində də çoxdan gözlənilən hadisə baş verdi -adı prezidentlikdən daha çox rüşvətxorluqda, çoxsaylı korrupsiya faktlarında, insan qətllərində, hakimiyyətin zorla zəbt olunmasında, ailə klanı qurmaqda, digər belə çinayətlərdə və Xocalı soyqırımının əsas günahkarlarından biri kimi hallanan Robert Köçəryan həbsə alındı.

Proses heç də asan yekunlaşmayıb. Yerli mətbuatın yaydığı xəbərlərə görə, avqustun 26-dan başlayaraq gecə səhərə qədər davam edən proses zamanı Köçəryanın vəkilləri bir neçə dəfə xəstəlik bəhanəsi ilə onun xəstəxanaya aparılmasına nail olublar. Xəstəxanada müayinələrdən sonra həkimlər Köçəryanın səhhətində məhkəmə prosesinin dayandırılmasına əsas verəcək problem olmadığına dair rəy veriblər. Bundan sonra Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi işini səhər saatlarında başa çatdıraraq R.Köçəryanın barəsində 2 aylıq həbs qərarı qəbul edib.

### Sabiq prezidentin qurduğu cinayət piramidası

Ermənistan Antikorrupsiya Komitəsinin sabiq prezident, “Ermənistan” blokunun lideri Robert Köçəryan da daxil olmaqla, altı nəfər barəsində həbs qətimkan tədbirinin tətbiqi barədə məhkəməyə verdiyi vəsatətləri normal insan şüuru ilə qavramaq mümkün deyil. Sadalanan cinayətlər dəhşət saçır və R.Köçəryanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə hüdudsuz bir cinayət piramidası qurduğu barədə konkret təsəvvür yaradır. Təfərrüatlar Antikorrupsiya Komitəsinin yaydığı məlumatda geniş əks olunub. Bildirlir ki, Antikorrupsiya Komitəsində xüsusilə külli miqdarda çirkli pulların yuyulması, vəzifə səlahiyyətlərindən sui-istifadə və xüsusilə külli miqdarda rüşvət alma faktları üzrə həyata keçirilən cinayət icraatı çərçivəsində, R.K. da daxil olmaqla saxlanılan altı nəfər, o cümlədən sabiq prezidentin oğlu, eləcə də 1999-2009-cu illərdə hökumət bağları təsərrüfatının direktoru olmuş A.V. və onun ailə üzvləri barəsində həbs qətimkan tədbirinin tətbiq edilməsi barədə Antikorrupsiya Məhkəməsinə vəsatətlər təqdim edilib.

Xatırladaq ki, bir müddət bundan əvvəl Ermənistanın keçmiş prezidenti Robert Köçəryana qarşı vəzifə səlahiyyətlərindən sui-istifadə (3 epizod), xüsusilə külli miqdarda rüşvət alma (2 epizod) və xüsusilə külli miqdarda çirkli pulların yuyulması (4 epizod) ittihamları üzrə açıq cinayət istintaqına başlanılıb. Antikorrupsiya Komitəsinin apardığı istintaq çərçivəsində müəyyən edilib ki, 1998-2008-ci illərdə Ermənistan prezidenti vəzifəsini tutmuş Köçəryan bir sıra şəxslərlə əlbir hərəkət edərək şəxsi və özəl maraqlardan çıxış edərək, dövlət mülkiyyətini özünə, onunla əlaqəli şəxslərə və şirkətlərə güzəştli şərtlərlə, o cümlədən bazar qiymətindən xeyli aşağı qiymətə və açıq hərraclar keçirilmədən ötürmək, habelə bu mülkiyyətin cinayət yolu ilə əldə edilməsini gizlətmək və ona qanuni görkəm vermək məqsədilə xidməti səlahiyyətlərindən istifadə edib.



Ermənistanın Antikorrupsiya Komitəsi tərəfindən cinayət işi üzrə aparılan istintaq çərçivəsində altı nəfər, o cümlədən sabiq prezident Robert Köçəryan, onun oğlu Sedrak və cinayət sxemləri ilə əlaqəli olduğu ehtimal edilən digər şəxslər saxlanılıb.

İbtidai istintaq çərçivəsində 2001-2019-cu illər ərzində sabiq prezidentin oğlunun adına həyata keçirilmiş, ümumi məbləği təxminən 144 milyard dram, 309 milyon dollar, 77 milyon avro və 18 milyon rubl olan pul köçürmələri ilə bağlı hallar da öyrənilir. Bundan başqa, cinayət təqibinə cəlb edilmiş şəxslərə və onların ailə üzvlərinə məxsus olan, Ermənistanda və xaricdə otuzdan çox daşınmaz əmlak obyektinin əldə edilməsi halları araşdırılır.

Bundan başqa, vergi xidməti Köçəryanlar ailəsinə məxsus “Toyota” salonunu möhürləyib. Həmçinin “Oranj fitnes” idman kompleksində istintaq hərəkətləri həyata keçirilir. Robert Köçəryanın oğlu Levonun evində axtarışlar aparılır. Antikorrupsiya Komitəsindən bildirilib ki, cinayət işinin icraatı çərçivəsində onlarla ünvanda axtarışlar və digər prosessual hərəkətlər həyata keçirilir.

### S. Sarkisyanın da başı qeylü-qalda

R.Köçəryanla bərabər, zamanında hakimiyyət kürsüsündə onu əvəzləyən digər bir sabiq prezident Serj Sarkisyanın da başı indi qeylü-qaldadır. Antikorrupsiya Komitəsinin yaydığı bəyanata əsasən ona ölkəni tərk etmək qadağası qoyulub. Artıq Serj Sarkisyana qarşı da ittiham irəli sürülüb. “Antikorrupsiya Komitəsində istintaq edilən eyni cinayət icraatı çərçivəsində Ermənistan Respublikasının sabiq prezidenti Serj Sarkisyana Ermənistan Respublikası Cinayət Məcəlləsinin 18 aprel 2003-cü ildə qəbul edilmiş 308-ci maddəsinin 2-ci hissəsi (qüvvədə olan Cinayət Məcəlləsinin 441-ci maddəsinin 2-ci hissəsinin 5-ci bəndinə uyğundur) ilə də ittiham irəli sürülüb”, - deyə komitədən bildirilib.

Xatırladaq ki, daha əvvəl Ermənistan prokurorluğu ölkənin ikinci prezidenti Robert Köçəryana qarşı cinayət işinin başlanması barədə məlumat vermişdi. Ona üç epizod üzrə vəzifə səlahiyyətlərindən sui-istifadə, iki epizod üzrə xüsusilə külli miqdarda rüşvət alma və dörd epizod üzrə xüsusilə külli miqdarda pul yuma ittihamları irəli sürülüb.

Eyni iş çərçivəsində daha doqquz nəfərə, o cümlədən müxtəlif illərdə Ermənistanın müdafiə naziri və baş naziri vəzifələrini tutmuş üçüncü prezident Serj Sarkisyana qarşı da cinayət təqibi başlanılıb.

### Hayla gələn vayla gedər

Otuz illik işğal dövründə Ermənistan tərəfindən Azərbaycana qarşı misli görünməmiş müharibə cinayətləri törədilib. Bir milyondan artıq insan ev-eşiyini tərk etmək məcburiyyətində qalıb. Tarixi mədəni-dini abidələrimiz məhv edilib, qəbiristanlıqlarımız təhqirlərə məruz qalıb. Qarabağda və ətraf ərazilərdə soydaşlarımız xüsusi amansızlıqla qətlə yetirilərək izlərini itirmək məqsədilə gizli şəkildə basdırılıblar. Post-müharibə dövründə bir neçə belə məzarlıq aşkarlanıb. Əvvəlcədən hazırlıq görülməklə dəhşətli Xocalı faciəsi törədilib, bütöv şəhər bir gecədə soyqırımına məruz qalıb. Bütün bunların həyata keçirilməsində R.Köçəryanın və S,Sarkisyanın xüsusi “xidmətləri” olub. Hətta onlar ictimai çıxışlarında “Xocalıda baş verənlərdən sonra azərbaycanlılar bizim onlarla zarafat etmədiyimizi anladılar” deməklə soyqırımına birbaşa rəvac verdiklərini etiraf ediblər.

Eks-prezidentləri azərbaycanlılara qarşı xüsusi nifrət birləşdirirdi. Ermənistan mətbuatında, sosial şəbəkələrdə aparılan müzakirələrdə ifadə olunan fikirlərdən o qənaət hasil olur ki, bu xüsusi nifrət ilk növbədə genetik amillərdən qaynaqlanır. Bəli, Ermənistanda iddia olunur ki, hər iki eks-prezidentin ailə şəcərəsində ata tərəfdən azərbaycanlı izi var, yəni onların ikisinin də anası azərbaycanlılarla vətəndaş nigahında olublar və bu izdivacdan da R.Köçəryan və S.Sarkisyan dünyaya gəlib. Erməni ailələrində anaların öz övladlarına hansı kodları aşıladıqları hər kəsə bəllidir. Bu kodlar daim türklərə, azərbaycanlılara nifrət hissləri ilə şifrələnib. Ermənistanın hazırkı rəhbərliyinin etiraflarından da bunu aydın şəkildə başa düşmək mümkündür.



R.Köçəryanın və S.Sarkisyanın azərbaycanlılara xüsusi nifrət bəsləməklə işğal illərində xalqımıza qarşı amansiz cinayətlər törətmələrinin genetik kodlarına nəzər saldıq. İstintaq materiallarından bəlli olur ki, hər iki eks- prezident ermənilərə münasibətdə də səmimi olmayıblar. Ermənistanın 1-ci prezidenti Levon Ter-Petrosyanı 1997-ci ildə hakimiyyətdən devirib, qanunsuz şəkildə onun kürsüsünə sahiblənən Robert Köçəryan, üstündən iki il keçəndən sonra, 1999-cu ilin 27 oktyabrında parlamentin güllələbaran edilməsi ssenarisini hazırlayanlardan idi. O vaxt Köçəryan əl-ayağına dolaşan parlament sədri Karen Demirçyanı, baş nazir Vazqen Sarkisyanı və daha 6 nəfəri - parlament sədrinin müavinləri Yuri Baxşyan və Ruben Miroyan, millət vəkilləri Armenak Armenakyan, Mikayel Kotanyan, Qenrix Abrahamyan və hökumət üzvü Leonard Petrosyanı güllələtdirdi. Silahlı dəstənin başçısının sabiq “Daşnaksutyun” üzvü, 1988-1990-cı illərdə tələbələr hərəkatı fəalı, “Qarabağ hərəkatı”nın aktivlərindən biri Nairi Hunanyanın olması çox şeyi deyirdi.

Robert Köçəryan hakimiyyəti Qarabağ klanının digər üzvü Serj Sarkisyana ötürən zaman da azı 10 nəfər etirazçını qətlə yetirdi. 2008-ci ilin 1 martında törədilən cinayətlər bu günə qədər tam şəkildə araşdırılmayıb. Nikol Paşinyan 2018-ci ildə Sorosun dəstəyi ilə Sarkisyanı devirib, hakimiyyəti ələ alandan sonra Qarabağ klanının liderlərinin əl-ayağını bir yerə yığmağa nail olmuşdu, Köçəryan, Sarksiyan, Ohanyan və digərləri ya həbsxanaya salındılar, ya da məhkəmə kluarlarında aylarla süründülər.

Bəhs olunan cütlük hakimiyyətdə olanda nə qədər qəddar idilərsə, nə qədər “cəsarətli” görünməyə çalışırdılarsa, son illərin hadisələri təsdiqlədi ki, onlar bir o qədər də qorxaqdırlar. Zamanında eks-prezidentlər özlərini Ermənistan cəmiyyətinə “Qarabağın qəhrəmanları” kimi təqdim edirdilər. 44 günlük müharibə zamanı isə bu kağız qəhrəmanlarının səsi də çıxmadı. Onların ən yaxşı qiymətini Öz adından və xalqımız adından Azərbaycan Prezidenti İlham Əliyev verib. Dövlətimizin başçısı 2023-cü ilin 23 noyabrında Ağdamdakı Cümə məscidinin qarşısında dəmir yumruğu bir daha göstərərək deyib :”Koçəryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız. Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandır bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçəryan, Sarkisyan, mən sizə deyirəm”.

R.Köçəryanın həbsə alınması və S.Sarkisyanın həbsinə hazırlıq görülməsi taleyin ironiyasıdır. Hayla gələn, vayla gedər, deyiblər. Əlbəttə, ədalət, beynəlxalq hüquq nöqteyi-nəzərindən həm R.Köçəryan, həm də S.Sarkisyan Azərbaycanda mühakimə olunmalıdırlar. Onlar Ermənistanda siyasi rəqabət zəminində qətllərə rəvac versələr də, mənimsəmələr həyata keçirsələr də, Azərbaycanda törətdikləri cinayətlərin miqyası daha böyükdür. Buna görə də dövlətimiz, xalqımız hər zaman onu istəyib ki, Bakıda layiqli cəzalarını alan separatçı rejimin rəhbərləri kimi, R.Köçəryan və S,Sarkisyan da Azərbaycanda ədalət məhkəməsi qarşısına çıxarılsın. Hələlik Ermənistan konstitusiyası bu şəxslərin Azərbaycana ekstradisiya edilməsiinə hüquqi əsaslar yaratmır. Ancaq hazırda Ermənistan Azərbaycanın şərti əsasında yeni konstitusiya dəyişikliyi ərəfəsindədir. Rəsmi İrəvan son vaxtlarda ölkəmizin haqlı mövqeyini nəzərə alır və yaxud buna məcburdur. Yeni konstitusiyada həmçinin respublikamıza, xalqımıza qarşı çoxsaylı cinayətlər törətmiş S.Sarkisyan, R.Köçəryan və digərlərinin Azərbaycana ekstardisiyasına hüquqi əsasların yaradılması da təmin edilməlidir.

*Mübariz FEYİZLİ*

# 18 ailənin sevinci...

Dünən növbəti köç karvanı ilə Cəbrayılın Şükürbəyli və Horovlu kəndlərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.



Beləliklə, uzun illər həsrətlə doğma yurda qayıdışı gözləyən insanlar üçün Şükürbəyli və Horovluda yeni həyat başlayıb. Burada həyata keçirilən quruculuq işləri "Böyük Qayıdış" proqramının uğurlu icrasının daha bir nümunəsidir. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Şükürbəyli kəndinə 15 ailə (86 nəfər), Horovlu kəndinə isə 3 ailə (12 nəfər) köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Fransa maliyyə dalanında - dağıdıcı nəticələr qaçılmaz ola bilər

İndi Fransanın hazırkı siyasi rəhbərliyi üçün bir növ hesabat dövrüdür. Ölkədə 2027-ci il növbəti prezident seçkiləri ilidir. Bu isə Emmanuel Makronun iki dönəmlik prezidentlik erasının sonu deməkdir. O, ölkə qanunvericiliyinə görə qarşıdan gələn seçkilərdə namizədliyini irəli sürə bilməz.

2018-ci ildən başlayan E.Makron erası Fransa üçün nə ilə əlamətdar oldu? Ölkənin son illərdəki reallıqlarına, Avropa İttifaqı (Aİ) daxilində, qlobal miqyasda, müstəmləkə ölkələrində üzləşdiyi ciddi problemlərə istinad etsək, suala hansısa bir təsellivеrici cavab vermək mümkün deyil. Əksinə, beynəlxalq birlik Fransanın getdikcə daha sürətlə yüzilliklər boyunca qoruduğu ənənələrdən uzaqlaşdığını, sosial-iqtisadi sahədə həlli müşkül görünən problemlər burulğanına düşdüyünü, Aİ-də liderliyini əldən verdiyini, müstəmləkə ərazilərindən qovulduğunu izləyir.

Son illərdə Fransanın üzləşdiyi ən ciddi problem isə E.Makronun milli qanunvericiliyin müddəalarını pozmaqla təyin etdiyi baş nazirlərin qurduqları hökumətlərin yarıtmaz fəaliyyətlərinin nəticəsi olaraq ölkədə maliyyə böhranının təhlükəli həddə çatmasıdır. Artıq müxtəlif analitik dairələr, nüfuzlu reytinq agentlikləri, hakimiyyətə iddialı olan müxalifət partiyalarının təmsilçiləri həyəcan təbili çalırlar və vəziyyətdən çıxmaq üçün təcili tədbirlər görülməsinin zəruriliyini əsaslandırırlar.

## Ölkədə maliyyə böhranı riski hər ötən gün daha da ciddiləşir

Fransanın dövlət maliyyəsinin vəziyyəti ilə bağlı narahatlıqlar artır. Bu günlərdə respublikaçılar partiyasından (LR) deputat və büdcə üzrə baş məruzəçi Filip Jüvən "France Televisions" kanalında yayımlanan "Telematin" proqramında ölkənin maliyyə vəziyyəti barədə xəbərdarlıq edib. Onun sözlərinə görə, maliyyə böhranı riski hər gün artır və tədbirlər görülmədiyi təqdirdə bu təhlükə daha da böyüyəcək. Deputat əsas xəbərdarlıq siqnalı kimi Fransanın maliyyə bazarlarından borc alarkən ödədiyi faizlərin yüksəlməsini göstərib. Bu artım xüsusilə avqust ayında nəzərəçarpacaq dərəcədə sürətlənib.

Jüvənin fikrincə, investorlar hələ də Fransaya etimad göstərirlər, lakin ölkənin müxtəlif borclanma əməliyyatları ilə bağlı riskləri nəzərə alaraq dövlətə daha baha şərtlərlə kredit verirlər.

Deputat mövcud vəziyyətin əsas səbəbini dövlət xərcləri ilə gəlirlər arasındakı ciddi balanssızlıqda görür. Onun hesablamasına görə, Fransa dövlət büdcəsi təxminən 330-340 milyard avro vergi gəliri əldə edir və təxminən eyni məbləğdə borclanır.

Bununla belə, Jüvən hesab edir ki, Fransa hələ iflas həddində deyil, çünki ölkə borc almaqda davam edir. Lakin əsas risk kreditorların Fransaya olan etimadını qəfil itirməsidir.

Deputat bildirir ki, Fransanın maliyyə vəziyyəti beynəlxalq kreditorlar tərəfindən diqqətlə izlənilir və ölkə Beynəlxalq Valyuta Fondunun (BVF) də nəzarəti altındadır. Jüvən bir neçə həftə əvvəl BVF nümayəndələri ilə görüşdüyünü bildirərək, kreditorların Fransaya etimadını hələ saxladığını, lakin bunun getdikcə çətinləşdiyini vurğulayıb. Onun fikrincə, bu tendensiya davam edərsə, Fransa kəskin və nəzarətsiz maliyyə böhranı ilə üzləşə bilər.

## Maliyyə vəziyyətinə təzyiq göstərən əsas amillərdən biri - dövlətin yüksək borclanma xərcləri

"Fitch" beynəlxalq reytinq agentliyi cari ilin mart ayında son qiymətləndirməsində Fransanın yüksək dövlət borcuna və dövlət maliyyəsinin sağlamlaşdırılmasını məhdudlaşdıran siyasi vəziyyətə diqqət çəkmişdi. Həmin vaxt "Fitch" 2026-cı ildə Fransanın büdcə kəsirinin ÜDM-in 4,9 faizi səviyyəsində olacağını proqnozlaşdırmışdı.

İqtisadiyyat naziri Rolan Lekür isə hökumətin bu hədəfə çatmasının çətin olacağını etiraf edib. Ölkənin maliyyə vəziyyətinə təzyiq göstərən əsas amillərdən biri isə dövlətin borclanma xərcləridir. Fransanın 10 illik dövlət istiqrazlarının gəlirliliyi son təxminən 20 ilin ən yüksək səviyyəsinə çatıb və bu, dövlət borcuna xidmət xərclərini artırır.

IESEG institutunun iqtisadi araşdırmalar direktoru Erik Dor hesab edir ki, mövcud şəraitdə "Fitch"in Fransanın reytinqini aşağı salması mümkündür.

Onun fikrincə, yay aylarında baş verən isti hava dalğaları və meşə yanğınları, kənd təsərrüfatı istehsalına dəyən zərər, yüksək neft qiymətləri və iqtisadi artım perspektivlərinin zəifləməsi vəziyyəti daha da çətinləşdirir. Dor, həmçinin qeyd edir ki, Fransanın 10 illik borclanma faizi bir sıra Avropa ölkələrindən xeyli yüksəkdir və bu, maliyyə bazarlarının narahatlığını göstərir.

Ekspertə görə, qarşıdan gələn prezident seçkiləri də reytinq agentliklərinin diqqətində olacaq. Prezident seçkilərinin ikinci turunda Marin Lö Pen və ya Jan-Lük Melanşonun iştirak etməsi ehtimalı, onların iqtisadi proqramlarının bazarlarda yaratdığı narahatlıq səbəbindən əlavə risk faktoru kimi qiymətləndirilə bilər.




## Payızda büdcə yenə də qəbul olunmasa...

Fransanın Dövlət Maliyyələri Baş İdarəsi (DGFiP) 2027-ci ilin büdcəsinin payızda qəbul olunmamasının ölkə iqtisadiyyatı üçün ciddi nəticələr yarada biləcəyi barədə xəbərdarlıq edib. Xüsusi qanunun müddətinin uzadılması büdcə kəsirini artırmaqla yanaşı, növbəti hökumətin fəaliyyət imkanlarını da əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilər.

DGFiP siyasi dairələrə ünvanlanan hesabatında 2027-ci ilin payızında büdcə qəbul edilmədiyi və onun əvəzinə xüsusi qanunun qüvvədə saxlanılması ssenarisinin iqtisadi nəticələrini qiymətləndirib. İdarənin qənaətinə görə, belə vəziyyət Fransa üçün ağır, hətta "dağıdıcı" nəticələr doğura bilər.

Xüsusi qanun yalnız dövlətin yeni büdcə qəbul edilənədək fəaliyyətini davam etdirməsi üçün nəzərdə tutulmuş təcili mexanizmdir. Lakin prezident seçkiləri ili olduğundan bu vəziyyətin uzun müddət davam etməsi mümkündür.

DGFiP-nin əsas xəbərdarlığı büdcə kəsirinin ən azı 0,5 faiz artması ilə bağlıdır. Xüsusi qanun tətbiq edilərsə, əvvəlki ilin büdcə vəsaitləri eyni səviyyədə saxlanılır, sosial xərclər isə avtomatik olaraq artır. Eyni zamanda, xərcləri azaltmaq və ya vergiləri artırmaq mümkün olmayacaq. Dövlət büdcəsi üzrə nazirin sözlərinə görə, xüsusi qanun ölkəni qərar qəbul etmək imkanından məhrum edə bilər.

Belə vəziyyətdə bəzi qruplar üstünlük əldə edə bilər. Pensiyalar avtomatik şəkildə yenidən indeksləşdiriləcək. Digər tərəfdən, gəlir vergisinin inflyasiyaya uyğun indeksləşdirilməməsi vergi ödəyən fransızların daha çox vergi ödəməsinə səbəb ola bilər.

Bu xəbərdarlıq hökumətin 2027-ci il büdcəsini parlamentdən keçirməkdə ciddi çətinliklərlə üzləşdiyi bir vaxta təsadüf edir. Hökumət müxtəlif qənaət variantlarını gündəmə gətirərək, müxalifətin reaksiyasını yoxlayır. DGFiP-nin hesabatı parlament üzvlərinə büdcə dalanının mümkün nəticələrini xatırladır. Prezident seçkiləri ilində bu arqument xüsusilə əhəmiyyətlidir.

Xüsusi qanun qüvvədə qalarsa, düzəliş edilmiş maliyyə qanununun qəbul edilməsi mümkün olmayacaq. Bu isə o deməkdir ki, seçkilərdən sonra hakimiyyətə gələcək yeni prezident və hökumət əvvəlki büdcəni dəyişdirmək imkanından məhrum olacaq.

## Müxalifətin borc ittihamı fonunda qızışan siyasi qarşıdurma

Milli Birlik partiyasının prezidentliyə namizədi Marin Lö Pen X sosial şəbəkəsində Fransanın maliyyə vəziyyətini sərt şəkildə tənqid edib. O, ölkənin borclanma faizlərinin 2008-ci il maliyyə böhranından bəri ən yüksək səviyyəyə çatdığını bildirərək bunu Emmanuel Makronun hakimiyyətdə olduğu on ilin amansız nəticəsi adlandırıb.

Fransanın 10 illik dövlət istiqrazlarının gəlirliliyi 4,1 faizə yüksəlib. Lö Pen dövlət maliyyəsinin vəziyyətini təsvir edərkən "Avgi tövlələrini təmizləməyin vaxtıdır" ifadəsini işlədib. Qədim yunan mifologiyasına istinad edən bu ifadə böyük və uzun müddət yığılmış problemi kökündən həll etmək mənasında istifadə olunur. RN-nin lideri, həmçinin dövlət büdcəsindəki xərcləri "qarşılığını indi ödəməli olduğumuz təminatsız çeklər" adlandırıb.

Marin Lö Penin bu açıqlaması ölkədə siyasi qarşıdurmaya səbəb olub. Makronun keçmiş iqtisadiyyat naziri Bruno Lö Mer Lö Penin ittihamlarına dərhal reaksiya verib. O bildirib ki, özü qənaət tədbirləri təklif etdiyi zaman RN yeni xərclər tələbini irəli sürüb.

Lö Mer faiz dərəcələrinin yüksəlməsini 2017-ci ildən həyata keçirilən iqtisadi siyasətdən geri çəkilmə və pensiya islahatının dayandırılması ilə əlaqələndirib. O, xüsusilə bu islahatın RN tərəfindən də tələb edildiyini vurğulayıb.

Baş nazir Sebastyan Lökornü isə növbəti büdcə ilə bağlı yayılan bəzi qənaət planlarını, o cümlədən tələbələr üçün mənzil yardımının ləğv ediləcəyi barədə məlumatları təkzib edib. O, fransızları narahat etmək məqsədilə təsdiqlənməmiş qərarların yayılmasına görə qəzəbli olduğunu bildirib.

## Yarım ildə 33 mindən çox sahibkar fəaliyyətini dayandırıb

Fransada səngimək bilməyən iqtisadi kövrəklikdən ən çox üçdən az işçisi olan kiçik müəssisələrin rəhbərləri zərər çəkirlər. Ölkədə 2026-cı ilin ilk altı ayında 33 mindən çox müəssisə rəhbəri fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb. "GSC-Altares" Observatoriyasının açıqladığı məlumatlara görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 7 faiz artıb. Üçdən az işçisi olan müəssisələrin rəhbərləri bütün itirilmiş iş yerlərinin təxminən 75 faizini təşkil edir.

Lakin böhran daha böyük şirkətlərə də təsir göstərir. Yarım ildə ən azı 20 işçisi olan müəssisələrin 694 rəhbəri fəaliyyətini dayandırıb, 50-dən çox işçisi olan şirkətlərdə isə rəhbərlərin iş itkisi bir il ərzində 52 faizədək artıb. Dövriyyəsi 5 milyon avrodan çox olan müəssisələrdə bu artım 26,4 faiz, 10 milyon avronu keçən şirkətlərdə isə 47,3 faiz təşkil edib.

Sektorlar üzrə tikinti sahəsi ilk sıradadır. İlin ilk altı ayında bu sektorda 7718 şirkət rəhbəri fəaliyyətini itirib ki, bu da ölkə üzrə ümumi göstəricinin təxminən dörddəbirinə bərabərdir.

İkinci yerdə 6971 sahibkarla ticarət sektoru gəlir. Mehmanxana və restoran sahəsində 5057 rəhbər fəaliyyətini itirib ki, bu da bir il ərzində 10,4 faizlik artım deməkdir. Müəssisələrə xidmət sektorunda isə itkilər 15,2 faiz artaraq 4770 sahibkara çatıb.

GSC-nin prezidenti Erve Kermarresin sözlərinə görə, sahibkarın fəaliyyətini itirməsi bütün sahibkar profillərinə təsir edə bilər və heç bir şirkət rəhbəri bundan sığortalanmayıb.

Qurumun araşdırmalar direktoru Thierry Millon isə bildirir ki, 33 mindən çox şirkət rəhbərinin fəaliyyətini itirməsi onların müəssisələrində çalışan təxminən 80 min muzdlu işçinin də iş yerini itirməsinə səbəb olub.

*Mübariz FEYİZLİ*

# Almaniya və daha beş Aİ ölkəsi yeni maliyyə çərçivəsi üzrə mövqelərini razılaşdırıb

Almaniya, Danimarka, Niderland, Avstriya, Finlandiya və İsveç Avropa İttifaqının (Aİ) 2028-2034-cü illər üzrə Çoxillik Maliyyə Çərçivəsi ilə bağlı ortaq mövqe nümayiş etdiriblər.

AZƏRTAC xəbər verir ki, Almaniya Kansleri Fridrix Merts həmkarları ilə Berlində keçirdiyi görüşdən sonra qrupun Aİ-nin növbəti büdcəsi üzrə danışıqlarda realizm, ölçülülük və islahatlara hazırlıq prinsipini müdafiə edəcəyini bildirib. O, növbəti Aİ büdcəsinin XXI əsrin çağırışlarına cavab verə bilməsinin vacibliyini ifadə edərək deyib: "Siyasi prioritetlərimizi əks etdirən müasir Çoxillik Maliyyə Çərçivəsinə ehtiyacımız var".

Görüşdə Aİ büdcəsinin müasir çağırışlara uyğunlaşdırılması, xüsusilə təhlükəsizlik və müdafiə, rəqabətqabiliyyətlilik, miqrasiya və suverenliyin prioritet istiqamətlər kimi müəyyənləşdirilməsi vurğulanıb.

Altı ölkə Aİ büdcəsinin maliyyələşdirilə bilən səviyyədə qalmasının vacibliyini qeyd edib. Avropa Komissiyasının təxminən 2 trilyon avroluq büdcə təklifinin bir neçə yüz milyard avro azaldılmasının zəruriliyi vurğulanıb. Liderlərin qəbul etdiyi bəyanatda bütün büdcə istiqamətlərinin bu ixtisarlara töhfə verməli olduğu qeyd edilir.

Tərəflər danışıqları 2026-cı ildə başa çatdırmaq niyyətində olduqlarını açıqlayıblar. Həmçinin yeni birgə borclanmanın Aİ-nin büdcə problemlərinin həlli olmadığını və struktur islahatlarının alternativi sayıla bilməyəcəyi ifadə olunub.



# Nüvə kabusu...

## Çəkindirici güc, yoxsa qlobal fəlakət?

Yarandığı gündən etibarən kütləvi dağıntı və böyük insan tələfatı təhlükəsi yaradan nüvə silahları bu gün bəşəriyyət qarşısında duran ən ciddi qlobal problemlərdən biri olaraq qalır. Onun yaratdığı fəsadlar yalnız insan həyatı ilə məhdudlaşmır, eyni zamanda ətraf mühitə və gələcək nəsillərə uzunmüddətli təsir göstərir. Bu baxımdan nüvə silahlarının mövcudluğu bütün dünya üçün ciddi narahatlıq mənbəyidir. Görülən tədbirlərə baxmayaraq, nüvə silahı təhlükəsi bu gün də beynəlxalq gündəmin ən həssas məsələlərindən biri olaraq qalır.

Tarixə nəzər yetirdikdə görürük ki, nüvə silahından istifadənin qarşısının alınmasına yönələn bir sıra addımlar atılıb. Amma təəssüf ki, hələ də "nüvə təhdidi" öz aktuallığını qoruyur. Hazırda Yer kürəsində təxminən 15000-dən çox nüvə başlığı saxlanılır və ən çox silaha sahib ölkələr Rusiya və ABŞ-dır. Bu silahların bir hissəsi aktiv döyüş vəziyyətində saxlanılır, digərləri isə ehtiyat arsenal kimi qorunur.

### Nüvə silahlarının psixoloji və siyasi təsirləri

Nüvə silahlarının istifadəsi etik cəhətdən də ciddi suallar doğurur. Bu silahlar mülki əhaliyə qarşı kütləvi zərər vurduğu üçün onların istifadəsi beynəlxalq humanitar hüquqa zidd hesab olunur. Bəzi ekspertlər nüvə silahlarının mövcudluğunu belə insan hüquqlarına təhlükə kimi qiymətləndirirlər. Digər tərəfdən isə bəzi dövlətlər bu silahların mövcudluğunu müharibənin qarşısını alan bir amil - yəni "çəkindirici vasitə" kimi qəbul edir.

Bütün bunlara baxmayaraq, nüvə silahlarının təhlükəsi sadəcə onların istifadəsi deyil, həm də psixoloji və siyasi təsirlərində gizlənir. Onların mövcudluğu belə ölkələrarası münasibətləri gərginləşdirir, silahlanma yarışını təşviq edir və sabit beynəlxalq nizamın qurulmasını çətinləşdirir. Bu səbəbdən beynəlxalq ictimaiyyətin əsas məqsədlərindən biri nüvə silahlarının tədricən ləğvi və dünyanın nüvəsiz gələcəyə doğru yönləndirilməsi olmalıdır.

Bəşəriyyəti məhv etməyə nail olan bu real təhlükə barədə söhbət açmağımızın məqsədi var. Belə ki, avqustun 29-u Nüvə sınaqları əleyhinə beynəlxalq fəaliyyət günü kimi qeyd olunur. Bu gün 2009-cu il dekabrın 2-də BMT Baş Məclisinin 64-cü sessiyasında təsis edilib. Təhlükəsiz dünya yaradılması üçün nüvə sınaqlarının dayandırılması məsələsində BMT-nin, dünya dövlətlərinin, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının səylərinin fəallaşdırılması zəruridir.

BMT-nin müvafiq qətnaməsinin preambulunda deyilir: "Nüvə sınaqlarının insanların həyatı və sağlamlığı üçün məhvedici təsirlərinin qarşısını almaq üçün bu cür sınaqlara son qoyulmalıdır".

### İlk atom bombası

İlk atom bombası İkinci Dünya müharibəsinin sonunda ABŞ-da hazırlanıb. Atom bombası havada partladıla bilər. 1945-ci ilin iyulunda ABŞ atom bombasını sınaqdan keçirdikdən sonra avqustun 6-da Yaponiyanın Xirosima, avqustun 9-da isə Naqasaki şəhərlərinə partlayış gücü 20 min ton trotil partlayışına ekvivalent olan 2 bomba atmışdı. Xirosimada 200 minə yaxın adam ölüb, sonralar isə şüa xəstəliyindən və yaralanmadan daha 35 min adam həyatını itirib.

### 9 ölkədə nüvə silahı var

Bu gün nüvə silahına malik 9 dövlətin adını çəkmək olar: ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Çin, Hindistan, Pakistan, İsrail və Şimali Koreya. BMT-nin təşəbbüsü ilə 12 iyun 1968-ci ildə imzalanan "Nüvə silahının yayılmaması barədə müqavilə"yə əsasən, 1967-ci il yanvarın 1-nə qədər nüvə sınaqları keçirən ölkələr nüvə dövlətləri hesab olunurlar.

Ən böyük problem isə bu silahların miqdarının düzgün açıqlanmamasıdır. Məsələn, mənbələrin birində hazırda Rusiyanın 6500, ABŞ-ın isə 3 mindən çox nüvə başlıqlı raketinin mövcud olduğu qeyd edilir. Stokholm Beynəlxalq Sülh İnstitutu (SIPRI) və Amerika Elm Adamları Federasiyasının (FAS) 2019-cu ildə birgə apardığı araşdırmalara görə də dünyada 9 ölkədə nüvə silahı var.

### Nüvə silahından istifadə olunarsa...

Nüvə silahı və nüvə hücumları ilə bağlı müxtəlif məlumat resurslarında olduqca maraqlı və insanı qorxuya salan informasiyalar mövcuddur. Maraqlı məlumatlardan biri də odur ki, 1983-cü ildə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə görə, hər bir həkim nüvə silahı tətbiqindən sonra insanlara yardım və müalicənin prinsiplərini bilməlidir. ÜST nüvə silahlarının fəsadlarını insan orqanizmi üçün faciəvi və geri dönüşü olmayan məhv prosesi kimi qiymətləndirir. Bu elə bir müharibədir ki, heç bir dərman, sarğı və əməliyyat, heç bir yüksək səviyyəli tibb onun yaralarını sağalda bilməz...

Əgər nüvə hücumu olarsa, həkimlər zərərçəkənlərə heç bir kömək edə bilməyəcək. Müasir tibb hər nə qədər inkişaf etsə də, nüvə partlayışının fəsadları qarşısında çox acizdir. Bir anlıq təsəvvür edək ki, nüvə silahı atılan region və radiusda şəhərlərdə xəstəxanalar, bütün binalar yanacaq, ölən insanlar içində həkimlər, tibb işçiləri də olacaq. Regiona nüvə silahının atılması həm də orda olan bütün həkim, tibb işçisinin məhvi deməkdir.

Ümid edək ki, bəşər tarixində heç vaxt nüvə silahından istifadəyə ehtiyac olmayacaq və bütün dünya xalqlarının amalı, məramı bir olacaq. O amal və məram ki, bəşəriyyətin xoşbəxtlik və rifah içində yaşamağına zəmin verəcək...




### Beynəlxalq hüquq nə deyir?

Nüvə silahından istifadənin beynəlxalq hüquqda çox ciddi tənzimlənməsi var və bu silahın istifadəsi spesifik və məhdudlaşdırılmış vəziyyətlərdə nəzərdə tutulur. Ümumilikdə, nüvə silahlarının istifadəsi bir neçə əsas qaydaya, beynəlxalq müqavilələrə və strateji nəzəriyyələrə əsaslanır. Bu mövzuda bəzi mühüm məqamlar var: "Nüvə Silahlarının Yayılmaması Müqaviləsi" (NPT). 1968-ci ildə qəbul edilmiş bu müqavilə, nüvə silahlarının yayılmasının qarşısını almağa yönəlmiş əsas beynəlxalq sazişdir. Müqaviləyə əsasən, nüvə silahlarına sahib olan dövlətlər öz arsenalını tədricən azaltmalı və nüvə silahlarının yayılmaması üçün səylərini artırmalıdırlar. Həmçinin, bu müqavilə silahların istifadəsinin yalnız özünümüdafiə məqsədilə və beynəlxalq hüquq çərçivəsində icazə verildiyi halda mümkün olduğunu bildirir.

Beynəlxalq hüquq nüvə silahlarını istifadə etməyə çalışan və ya nüvə silahlarını yaymağa cəhd edən ölkələrə qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq edir. BMT Təhlükəsizlik Şurası bu məsələdə mühüm rol oynayır və bəzi ölkələrin nüvə silahlarını inkişaf etdirməsi və istifadə etmək istəyi ciddi beynəlxalq reaksiyalarla nəticələnir.

### "İlk" və "Sonra istifadə"...

Nüvə silahlarını istifadə etmək üçün bir çox dövlət əvvəlcə "ilk istifadə" hüququnu təmin etməyi və ya "ilk zərbəni" atmağı qəbul etmir. Yəni, nüvə silahlarını ilk olaraq istifadə etmək beynəlxalq qaydalara qarşıdır. Lakin bəzi ölkələr, (məsələn, ABŞ və Rusiyanın bəzi strateji doktrinlərinə görə) "ilk istifadə" siyasətini qəbul ediblər. Bu siyasətə görə, dövlətlər öz ərazilərini və ya müttəfiqlərini qorumaq üçün nüvə silahını ilk dəfə istifadə edə bilərlər.

Beynəlxalq hüquq insanlıq üçün nüvə silahlarının istifadəsini minimuma endirmək və silahların yayılmasının qarşısını almaq üçün beynəlxalq sazişlərə əsaslanır. Bu silahlar heç vaxt müharibənin bir vasitəsi olaraq qəbul edilə bilməz. Çünki onların nəticələri bütün bəşəriyyətin gələcəyini təhlükəyə atır...

*Yeganə BAYRAMOVA*

# Qara fələyin ağ maskası

## Herman Melvillin "Mobi Dik, yaxud Ağ balina" romanı haqqında

**əvvəli ötən saylarımızda**

"Pekod" balina sürüsünə rast gələndə belə kapitanın dərin çapıqlı üzündə sevinc işartısı görünmür. Adət üzrə balıqçılar bir balina ovlayırlar, ancaq Axav vaxt itirməmək üçün sürüyə bənd olmağa, ova aludə olmağa imkan vermir. Starbek onu yola gətirməyə çox çalışsa da, kapitan inadından dönmür. Baş köməkçi bu səfərdən sırf kommersiya məqsədi güdür, onun arzusu ovdan əlidolu dönüb evinə, ailəsinə qovuşmaqdır. Rasional düşüncəli Starbek üçün balina şəhərləri, kəndləri işıqlandıran enerji mənbəyindən artıq bir mahiyyət daşımır, onun xəyali mistik-romantik çırpıntılardan, yüksək qraduslu vəcd bayılmalarından xalidir. Bununla belə, nə qədər ağıllı, realist olsa da, Axavın çılğın öcəşkənliyinin gəmini labüd fəlakətə sürüklədiyini aydın görsə də, baş köməkçi vəziyyəti dəyişməyə göstərdiyi hər cəhddə kapitanın dəmir inadına, daş-qayadan yonulu xarizmasına dirənib durur, nə ağlını itirmiş başçını həbs eləməyə cəsarəti çatır, nə də onu öldürməyə əli qalxır. Silahını hədəfinin bir addımlığında hazır tutmuş köməkçisinin düz gözlərinə zillənən kapitan deyir ki, heç vaxt dənizi, səmanı seyrə dalmaqdan xüsusi zövq almayıb, ondan ötrü ən maraqlı mənzərə insan üzü, insan gözüdür (sonralar buna bənzər fikri Folkner də dilə gətirəcək).

Gəmi heyətinin marağına açıq-aşkar zidd getsə də, kapitan Axav matrosları tilsimləyib cazibə dairəsində saxlaya bilir. Starbeki sui-qəsddən daşındıran başlıca səbəb də bəlkə matrosların despota kölə sədaqətiylə bağlanması olur. Axav üçün gəmi heyəti ayrı-ayrı adamlardan ibarət deyil, bu heyət ondan ötrü kərpic-kərpic hörülmüş divar yox, ayağının altına alıb məqsədinə doğru boylandığı monolit bir qayadır, eynən ayağındakı protez kimi bədəninin bir üzvü, canının bir parçasıdır. Axav usta rejissor sayaq matrosları qurduğu tamaşanın könüllü aktyorlarına çevirə bilir. Köməkçiləri çılğın qocanın ağlını qaçırdığını anlasalar da, ona təsir göstərməyə, yaxud sərbəst addım atmağa, heyəti xilas eləməyə cəsarətləri çatmır. Onlardan biri deyir ki, beyni qızmış cəsur adam qorxaqdan qat-qat təhlükəlidir. "Pekod" gəmisindəki vəziyyət eynən iki yüz il sonra şimal qonşumuzun düşdüyü vəziyyətə bənzəyir...

Günün birində onlar bir ingilis gəmisiylə rastlaşırlar. Gəminin kapitanıyla söhbət əsnasında məlum olur ki, ağ balinanı ovlamaq istəyəndə o da dirsəkdən aşağı bir qolunu itirib. Ancaq ingilis kapitanın balinadan qisas almaq ağlına da gəlmir. Axav ondan Mobi Dikin getdiyi səmti öyrənib gəmini o səmtə sürdürür, bir müddət sonra "Pekod" Sakit okeana çıxır. Starbek yenə kapitana yalvarıb şüursuz bir varlığa kin, nifrət bəsləməyin, dilsiz-ağızsız heyvanla illər uzunu mübarizə aparmağın mənasız olduğuna onu inandırmağa çalışır. Fəqət kapitan Axavın öz fəlsəfəsi var: onun fikrincə, canlı-cansız bütün varlıqlar hansısa mübhəm qüvvənin üzünə taxdığı karton maskalardan başqa bir şey deyil. Başqa sözlə, Axav şüursuz məxluqla yox, həmin o fövqəlgüclə, min-min maska arxasında gizlənmiş nəhəng qüdrətlə, qarı fələyin özüylə çarpışıb vuruşur.

Ağıllı-başlı baş köməkçi belə sərsəm fəlsəfəni qanmaq iqtidarında deyil, ancaq kapitanın hipnoz altında saxladığı kütləni də otarmağa gücü yoxdur. Ağ balina ilk dəfə uzaqdan görünəndə kapitan göyərtədə şadyanalıq eləyib matroslara içki payladır, bütün heyət onun ovqatına yoluxur, matroslar səs-səsə verib Mobi Dikin ölümü şərəfinə şərab içirlər. İndi artıq Axav kimi onların da tək arzusu adamyeyən balığın qara qanına qəltan olmuş ağ cəmdəyini suyun üzündə yırğalanan görməkdir.

***

Gəmi iyerarxiyasının başında kapitan Axav durursa, ən aşağı pilləsində matrosluğa namizəd yeniyetmə zənci balası Pipi görürük. Bu iki qütb arasında qəribə əlaqə var, qalan bütün xarakterlər daşıdıqları vəzifələrlə birgə bu qütblərin arasında yerləşirlər. Kapitan Axav əsərdə hakimiyyət ehtirasının, kor nifrətin, aqressiv gücün zirvəsini, şagird Pip isə bunların tərs üzünü - can qorxusunun, ölüm xofunun, reqressiv çöküşün dibini təmsil eləyir. Bu da həyatın, taleyin ironiyasıdır ki, güclü, sağlam adamları şikəst, ərköyün bir qoca barmağında oynadır. Onun magik qüdrəti tabeliyində olanların fiziki qüvvəsindən qat-qat ötədir, başqa sözlə, instinkt əzələdən çox-çox güclüdür.

Ovçular balina ovlamaq üçün qayıqla dənizə enəndə yeniyetmə Pip də onlara qoşulur. Ovun qızğın çağında dalğa vurub Pipi qayıqdan salır, oğlan yalnız boş xilas çəlləyinin hesabına suyun üzündə qalır. Ovlanmış nəhəng balığın cəmdəyini gəmiyə qaldırandan sonra matroslar çox çətinliklə gecənin zülmətində axtarıb zənci balasını tapırlar. Ancaq amansız okeanın qoynunda uzun müddət köməksiz qalan Pip artıq əvvəlki istiqanlı, üzüyola oğlan deyil - bir yandan balıqlara yem olmaq qorxusu, bir yandan da suyun iliyə işləyən soyuğu onun ağlını başından alıb. Havalı oğlan artıq başqalarıyla yox, yalnız özünün bildiyi dildə özüylə danışır, öncəgörməyə bənzər anlaşılmaz sözlər söyləyir, baş-ayaq cümlələr qurur. Axav zavallı Pipi yanına götürür, ona öz kayutunda sığınacaq verir. Axavla Pipin birgəliyinə təhkiyəçi qəhrəman İzmail çox dəqiq diaqnoz qoyur: "Budur, iki dəli gəlir, biri gücündən, o biri zəifliyindən havalanıb..."

Doğrudan da, bu gəmidə Axava Pipdən yaxın kimsə yoxdur, yeniyetmə şagird qoca kapitanın astar üzüdür. Alışıb-yanan ehtirasdan, sönməyən nifrətdən gözü bağlanmış Axava - şizofreniya, ucsuz-bucaqsız okeanın vahiməsindən, keçirdiyi şokdan nitqi qurumuş Pipə - paranoya diaqnozu qoyula bilər, zənnimcə; çünki şizofreniya yaşamaq ehtirasının, paranoya isə ölüm qorxusunun qabını doldurub daşması, patologiyasıdır. Bir medalın iki üzü, özünüqoruma adı verdiyimiz bir instinktin iki qütbü olsa da, bir kökə, bir gövdəyə bağlı bu bir cüt yarasa qanadı bir-birindən əsla aralı deyil, bir-birindən ayrı uçmur, qoşa çırpınır. Bu baxımdan Axavın Pipi cəzb eləməsi rəmzi məna daşıyır. Eynən şizofreniya ilə paranoya da maddi-bioloji həyatın iki qütbü kimi əbədi izdivacdadır, bir-biriylə iç-içədir, bir-birinə asanlıqla çevrilir.

Əlbəttə, bütün bunlar tibbi-psixiatrik sahədə təcrübə toplamış peşəkarın yox, sıradan bir həvəskarın mülahizələridir.

***

Kapitanın ikinci köməkçisi, müdam narahat, qaraqabaq, bədbinliyə qapılmaq dərəcəsində realist Starbekdən fərqli olaraq daim şən, qayğısız, söhbətcil, taleyindən gileylənməyən, ölümü vecinə almayan, damağından qəlyan düşməyən, ən ağır problemləri belə zarafatla yola verən Stabb nə təhlükədən qorxur, nə də qəhrəmanlıq iddiasındadır. Axavın üzünə qayıtmaq, kapitana sui-qəsd eləmək onun ağlına da gəlmir, çünki həyatda hər şeyin taleyin hökmündən asılı olduğuna inanır, ona görə də gələcək sarıdan həyəcan keçirmir, ən təhlükəli məqamlarda belə ruhdan düşmür. Stabb peşəkar dənizçi kimi kapitanın əmrlərini canla-başla, sorğu-sualsız yerinə yetirir. Bədheybət ağ balina ondan ötrü şər timsalı, fələyin itilənmiş qılıncı yox, sadəcə, nəhəng piy torbası, dolanışıq mənbəyidir. Kapitanın ikinci köməkçisi təbiətinə görə həm Axava, həm də Starbekə daban-dabana zidd xarakterdir, o, həyatla ölüm arasındakı qıl körpünün üstündə bir kəndirbaz məharətiylə yeriyir. Stoiklərin fatalizmiylə epikürçülərin hedonizmi Stabbın şəxsiyyətində qovuşur.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Şənbə üçün nəzm



Ən sevimli fəslin
Yay olmasaydı.
Bahardan sonra payız gəlsəydi,
Səni unutmağa nə vardı ki?!
Səhərlər Günəş doğmasaydı,
Axşamlar Ay çıxmasaydı
Səni unutmağa nə vardı ki?!
Küləklər əsməsəydi,
Çiçəklər bitməsəydi...
Səni unutmağa nə vardı ki?!

***

Gözlərimin buludlara dolmağı,
Yağışlara yağmağı öyrətdiyi
Günlərdə yazıram sənə.
Gözlərim çəkən yollarda
Səni gəzib azıram yenə.
Küləklərdən dilənirəm qoxunu.
Elə atmısan ki, zalım həsrətin oxunu.
Gündüzlərimdən günəşi,
gecələrimdən ayı
parçalayıb töküb yerə.
Dualarım da çatmır ulu göylərə
Ki görəydim səni barı bir kərə.
Xatirələr xatırlanıb şeir olur,
Gecələrim uzanıb ömür olur,
Darıxanların içdiyi su da zəhər olur.
Ağı deyir qəlb atışım,
Nakam ölən sevincimə, ümidimə.
Bu qosqoca təkliyimi
öldürmək istəmirəm
səndən özgə birinə.

***

Soyuq yanvar küləyi
vərəqləyir təqvimi,
Xatirələr diksinir qəfil
qar nəfəsindən.
Hardasa qəm ulayır
tənha yalquzaq kimi.
Kədər məni tez tapır
ürəyimin səsindən.

Saçıma vaxtsız düşən o dənlərin hərəsi,
Sanki ayağım altda əzilən qar dənəsi.
Elə çoxdur ki sayı, yaraşmır heç bircəsi.
Bəxtimin yurd yeridir,
heyif qəhər küçəsi.

Mənə qışı sevdirən sən olmuşdun,
e adam.
Başıma ələdin sən, qarları aram-aram.
Axı səndən sonra mən qışdan
necə zövq alam?!
Ömrümün bahar çağı
sən gedəli qışa ram.

***

Olardımı unutmaq gözlərinin qarasın?
Baxışların rəngindən məhəbbət
yağırdı e.
Axı sən düzəltmişdin mənlə
eşqin arasın?
İndi yoxsan, həsrətin sevgindən
ağırdı e.

Həsrətin talan edir bu gənc
ömrümü mənim.
Dodağımdan gülüşü necə də qopardır e.
Zamansız sözün kəsir hüzurumun,
nəşəmin.
Saçlarımda bəxtimi necə də ağardır e.

Qəlbim olub həsrətlə eşqə
savaş meydanı,
Sənsiz mənim dözməyə gücüm,
qüvvətim hanı?
Gözlərimdən tökülür necə
arzumun qanı.
Qan ağlayır gözlərim,
görmürəm ki dünyanı.







*Aynur Haqverdi*

Yenə ağlımdan keçdin,
gözləri şeir adam,
Dəyişdi abu-havam nəfəsi ətir adam.
Sevgi mi yağır göydən islanmısan
lap tamam?
İslanmaq da gözəldir,
götürmə çətir, adam.

Yenə yadıma düşdün
qaranlıq düşən kimi,
Yenə bir dilək tutdum
ulduz sürüşən kimi.
Bəxş etdiyin fərəhlə
qəlbim görüşən kimi
Hislərim dastan olur,
yerişi sətir adam.

Yenə xəyalın gəlib, gözlərimdə dincəlir.
Röyalar ərşə çıxır, görsə xəyalın gəlir.
Saatın əqrəbləri ömrümün bağrın dəlir.
Vüsalı məlhəm təki özünlə gətir, adam.

***

Səni unutmaq asan olardı
Birgə çərpələng uçurduğumuz
Küləklər olmasaydı.
Bir zamanlar məni bənzətdiyin
Çiçəklər olmasaydı.
Səni unutmaq asan olardı.
Sevgimizin şahidi
Günəş, Ay olmasaydı,
Təqvimdə fəsillərdən

# Əlyazmanın qapıları

## *Hər tərəfdən açılmaq üzrədir.*



*Məqsəd Nur*

Get-gedə qədim mətnlərdəki sirlər açılır. Texnologiya qapını döyür və içəri dəvət almadan evə daxil olur. Bircə qalır, sirləri düzgün oxuyub anlamaq...

Dünyada qədim əlyazmaların qorunması, bərpası və elektronlaşdırılmasında Süni İntellekt (Sİ), qabaqcıl görüntüləmə texnologiyaları vasitəsilə inqilabi innovasiyalar tətbiq edilir. Artıq kömürləşmiş, bir-birinə yapışdığı üçün açılması qeyri-mümkün olan əlyazmalar virtual açılma və KT texnologiyaları ilə işığa çıxır, bülükmüş əlyazmaların daxili qatları rentgenlə skan edilir. Hətta vulkan nəticəsində kömürə dönsə də, nisbətən salamat qala bilmiş papiruslar Sİ vasitəsilə, açılmadan, daxilindəki mürəkkəb izlər təhlil edilərək rəqəmsallaşdırılır. İllərlə solub saralmış, qaralmış, hətta üzərində yenidən nə isə yazılmış mətnləri bərpa etmək mümkün olur.

Artıq Avropada bu istiqamətdə həyata keçirilən layihələr çərçivəsində qırx minə yaxın orta əsr əlyazması rəqəmsallaşdırılaraq axtarışa uyğun mətn formasına çevrilib. Sİ Vatikan kitabxanasındakı qədim, kodlaşdırılmış əlyazmaların dilini deşifrə etməklə uğurlu nəticələrə nail olub. Bu, azmış kimi, qədim əlyazmaların üzərindəki “yad izlər”, su ləkələri, yırtıqlar, hətta sonradan edilmiş qeydlər müəyyənləşdirilərək ortaya çıxarılır. O cümlədən, itmiş hissələr bərpa edilir: Sİ mətnin qalan hissəsinin kontekstini və müəllifin yazı üslubunu təhlil edərək, hər hansı səhifənin itmiş, silinmiş hissələrində hansı sözlərin olduğunu dəqiqliklə müəyyənləşdirərək bərpa edə bilir.

İnnovasiyalar təkcə texnoloji bərpa ilə bitmir, həmçinin əlyazmalar idarə edilir, təsnifatlaşdırılır. Xüsusilə, ərəb əlifbasında olan əlyazmaların təsnifatı üçün yaradılmış koqnitiv sistem vasitəsilə əlyazmanın xətt növü, dövrü, mövzusu avtomatik olaraq kataloqlaşdırılır.

Dünyanın ayrı-ayrı kitabxanalarında saxlanılan əlyazmaların fraqmentləri bulud sistemlərin köməyilə vahid şəkildə birləşdirilərək, alimlərə hər hansı mətni ümumiləşdirib tədqiq etmək imkanı verir. Qədim mətnlər də müasir, rəqəmsal mətnlərin sırasına qarışaraq elektron resursa çevrilir. Beləcə, min illər boyu yaratdığımız irs və üslub bu dəfə qapılarını üzümüzə açır.

Texnologiya insan gözünün görə bilmədiyi yerləri görə bilir, çünki işıq dalğaları başqadır - texnologiya insandan fərqli olaraq infraqırmızı, ultrabənövşəyi işıq dalğaları tətbiq edir, sonra isə zəkanın min bir əzabla yaratdığı üslubu da müəyyənləşdirə bilir.

Lakin bu texnologiyanı da insan yaradır. Və beləcə, bütün əlyazmalar gələcək nəsillərə ötürülür...

Bircə sual qalır. Gələcək nəsil keçmişi oxumaq istəyəcəkmi? Bundan sonra da insan zəkası ÜSLUB yaradıb Sİ ilə oyun oynamağa çalışacaqmı?

# Məktəbli forması alarkən...

## Qiymət, keyfiyyət, material

## Valideynlər nələrə diqqət etməlidir?

Yeni tədris ilinin başlanmasına sayılı günlər qaldıqca valideynlərin diqqəti yenidən məktəb alış-verişinə yönəlir. Mağazalarda və satış məntəqələrində canlanma artır, valideynlər həm münasib qiymətə, həm də bütün tədris ili ərzində istifadəyə yararlı olacaq geyim axtarışına çıxırlar.

Əslində məktəbli forması sadəcə geyim deyil. Uşağın günün böyük hissəsini keçirdiyi mühitdə onun rahatlığına birbaşa təsir edən vasitələrdən biridir. Buna görə də forma seçərkən yalnız rəngə və görünüşə deyil, parçanın tərkibinə, hava keçirmə xüsusiyyətinə, mövsümə uyğunluğuna və davamlılığına diqqət yetirmək vacibdir.

## Parçalar bu ölkədən gətirilir

Bakı Tikiş Evinin satış şöbəsinin müdiri Etibar Əzimov bildirib ki, məktəbli formaları əvvəlcədən hazırlanaraq anbarlarda saxlanılır. Bu, ilboyu alıcılara müxtəlif ölçülərdə məktəbli geyimlərinin təqdim edilməsinə imkan verir. Hətta 56, 58 və 60 ölçülü məktəbli formaları da əvvəlcədən hazırlanaraq satışa çıxarılır:

“Biz məktəbli formalarını əvvəlcədən - qış aylarından etibarən hazırlamağa başlayırıq. Parçaları Belarus, Türkiyə və Özbəkistandan gətirir, istehsal etdiyimiz məhsulları hazır şəkildə anbarlarda saxlayırıq. Buna görə də ilboyu bütün ölçülərdə məktəbli formalarını təqdim edə bilirik. Mövsüm vaxtı böyük ölçülərə də tələbat yarandığından 56, 58 və 60 ölçülü geyimləri də əvvəlcədən hazırlayırıq ki, valideynlər sifariş gözləməsinlər.

Hazırda mağazalarda nisbətən sakitlikdir. Lakin sentyabrın ilk günlərindən sonra alıcıların sayı kəskin artır. Ona görə valideynlərə məsləhətim odur ki, vaxt itirmədən məktəbli formalarını əvvəlcədən alsınlar.

Bakı Tikiş Evində istehsal olunan məktəbli formaları Nazirlər Kabinetinin müvafiq qərarının tələblərinə uyğun hazırlanır. Şalvar və ətəklərin, eləcə də jaketlərin tərkibi 60 faiz yun, 40 faiz poliester, polo köynəklər isə 100 faiz pambıqdır. Müəssisədə istehsalda istifadə olunan parçalar Belarus, Türkiyə və Özbəkistandan tədarük edilir”.

## Bu il qiymətlər necədir?

Bakı Tikiş Evində məktəbli formalarının qiymətləri ötən illə müqayisədə aşağı salınıb. Hazırda oğlan və qızlar üçün qısaqol polo köynək 12 manat, uzunqol polo köynək 14 manat, şalvar 15 manat, nazik jaket 20 manat, kapüşonlu jaket 25 manat, qalın jaket 22 manat, qızlar üçün ətək isə 15 manatdır.

Bununla yanaşı, bazarda qiymətlər eyni deyil. Mağazadan, istehsalçıdan, parçanın növündən və məhsulun keyfiyyətindən asılı olaraq, ciddi fərqlər yarana bilir. Məsələn, bəzi satış məntəqələrində qısaqol köynəklər 23-27 manat, uzunqol köynəklər 25-27 manat, şalvarlar 20-35 manat, jaketlər 25-35 manat, ətəklər isə 25-35 manat aralığında təklif olunur. Başqa satış məntəqələrində isə yerli istehsal olan köynəklərin qiymətinin 12 manatdan, şalvar və ətəklərin qiyməti 19 manatdan, jiletlərin qiymətinin isə 23-24 manatdan başladığı bildirilir.

Bu rəqəmlər göstərir ki, valideynin qarşısında bir neçə seçim var. Lakin “ən ucuzunu almaq” fikri hər zaman ən sərfəli seçim demək deyil. Çünki məktəbli formasının qiyməti ilə yanaşı onun neçə ay və ya neçə il istifadə edilə biləcəyi də nəzərə alınmalıdır.



## Parçanın tərkibi niyə vacibdir?

Məktəbli formasında material məsələsi valideynlərin xüsusi diqqət yetirməli olduğu məqamlardandır. Hazırkı formaların materialları məhsuldan asılı olaraq fərqlənir.

Bakı Tikiş Evindən verilən məlumatlarda polo köynəklərin 100 faiz pambıq, şalvar və ətəklərin isə 60 faiz yun, 40 faiz poliester tərkibli olduğu göstərilir.

Pambıq parçanın əsas üstünlüklərindən biri dərinin nəfəs almasına imkan verməsi və gündəlik geyim üçün rahat olmasıdır. Uşaq saatlarla məktəbdə, sinif otağında, bəzən isə hərəkətli fəaliyyətlər zamanı bu geyimdə qalacağı üçün parçanın rahatlığı xüsusi əhəmiyyət daşıyır. Şalvar və ətəklərdə isə müəyyən miqdarda sintetik lifin olması parçanın daha davamlı olmasına, formasını daha yaxşı saxlamasına və tez qırışmamasına kömək edə bilər.

Ancaq burada da əsas məsələ tərkibin özü ilə yanaşı, məhsulun keyfiyyətidir. Valideyn formanın yalnız pambıq olmasına deyil, geyimin etiketinə, tikişlərinə, parçanın sıxlığına və ümumi hazırlanma keyfiyyətinə baxmalıdır.

Valideynlərin qarşısında duran başqa bir məsələ də “bir dəst alım, yoxsa iki dəst?” sualıdır. Uşağın məktəbdə gündəlik istifadə etdiyi geyimin tez çirklənməsi nəzərə alınaraq, imkan daxilində ən azı iki

## Bir forma kifayətdirmi?

köynək və gündəlik istifadə üçün bir neçə əsas geyim elementinin olması valideyn üçün daha rahat seçimdir.

Xüsusilə, kiçik yaşlı uşaqlarda geyimin daha tez çirklənməsi və yuyulması səbəbindən bir dəst formaya güvənmək praktik baxımdan çətinlik yarada bilər. İki dəst forma almaq ilkin xərci artırsa da, geyimlərin növbəli istifadəsinə imkan verdiyi üçün həm valideynin işini asanlaşdırır, həm də paltarların daha tez köhnəlməsinin qarşısını qismən alır.

## Valideynlər başqa nəyi yoxlamalıdır?

Bundan başqa, tikişlərdə boş sapların olub-olmaması, düymələrin və ya digər bərkidicilərin möhkəmliyi, parçanın çox nazik və ya həddindən artıq sərt olmaması da diqqətdən qaçmamalıdır.

Məhsulun mənşəyi və keyfiyyət göstəriciləri də nəzərə alınmalıdır. Mütəxəssislər valideynlərə sertifikatlı və fabrik istehsalı məhsullara üstünlük verməyi tövsiyə edirlər.

***Yeganə BAYRAMOVA***

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4498**
**Sifariş: 1099**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova